AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Əlyazması hüququnda

TƏRANƏ PƏRVİZ qızı MƏMMƏDZADƏ

İDİOMLARIN İKİ MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ (İNGİLİS-AZƏRBAYCAN) İŞLƏNMƏSİ VƏ ONLARIN HƏR İKİ DİLİN MƏNA ÇALARLARINA MÜSBƏT TƏSİRİ

İxtisas: HSM – 060201 – Dilşünaslıq (İngilis dili üzrə)

Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş

DİSSERTASİYA

Elmi rəhbər: _____
Nərgiz Cəfər qızı Gözəlova
filologiya üzrə fəlsəfə doktoru, dosent

BAKI-2022

MÜNDƏRİCAT

GİRİŞ.....3-8

I FƏSİL. İDİOMATİK İFADƏLƏRİN ƏMƏLƏGƏLMƏ MƏNBƏLƏRİ……9-36

1.1 İdiomatik vahidlərin leksik və qrammatik quruluşu.....32-36

II FƏSİL. İNGİLİS DİLÇİLİYİNİN FRAZEOLOGİYASINDA İDİOMLARIN ROLU VƏ AZƏRBAYCAN DİLİNDƏ EKVİVALENTİ.....37-69

2.1. İngilis-Azərbaycan dillərində idiomların ideya məzmun və semantik xüsusiyyətləri. İdiomların təsnifatı.....54-69

GLOSSARY……..70-72

NƏTİCƏ..... .73-76

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI.....77-82

GİRİŞ

Dünyada hal-hazırda çoxlu sayda xalqlar mövcuddur. Onlardan bəziləri qədim dövrlərdən bəri yaşayırlar. Belə xalqlardan biri ingilis xalqıdır. Onlar qədim tarixə malik olduğu üçün müxtəlif dövrlərdə digər xalqların nümayəndələri ilə qarşılıqlı əlaqələr yaradıblar. Bu qarşılıqlı əlaqənin təsiri həmin xalqların ədəbiyyat və dillərində özünü daha aydın şəkildə göstərməkdədir. Nitqin qurulmasında yalnız leksik vahidlərdən istifadə etməyin mümkün olmadığı aydın məsələdir. İnsanlar danışarkən öz hislərini, hər hansı bir məsələyə olan münasibətlərini ifadə etmək üçün dilin bütün vasitələrindən istifadə etməyə can atırlar. Beləliklə, biz danışarkən yaxud yazarkən fikrimizi daha ifadəli şəkildə çatdırmaq üçün bir qrup ifadələrdən istifadə edirik. Nitqə ifadəlilik, obrazlılıq və canlılıq gətirən bu ifadələr frazeoloji birləşmələr adlanır. Ona görə də biz bu birləşmələrə həm bədii, həm də məişət üslubunda rast gəlirik. Əsas məsələlərdən biri frazeoloji vahidlərin məcazi məna kəsb etməsi ilə əlaqəlidir. Bəzi frazeoloji birləşmələrə və onların bizim dilimizdəki mənasına nəzər yetirək. Məsələn:

get deadly frightened – qorxmaq, *try to win someone's favour at any cost – qəlbini qazanmaq, to fly into a rage – əsəbləşmək, to be born under a lucky star – şansı üzünə gülmək* və s. çoxlu sayda frazeoloji birləşmələr yazmaq olar [55, s. 760, 547, 447, 750].

Frazeoloji birləşmələr, gördüyümüz kimi, iki və daha artıq sözün birləşməsindən əmələ gəlir və söz birləşməsi adlanır. Söz birləşmələri, demək olar ki, bütün dillərdə mövcuddur.

Ümumiyyətlə, ingilis dilində istifadə olunan bu cür söz birləşmələrini *free word combinations*, yəni sərbəst söz birləşmələri adlandırırlar. İngilis və Azərbaycan dilçiliyində oxşar cəhətlərdən biri odur ki, hər iki dil sabit söz birləşmələri ilə zəngindir. Sabit söz birləşmələri frazeoloji birləşmələr adlanır. Bu tip birləşmələr ingilis dilində *fixed word combinations* və ya *phraseological combinations* adlanır [63].

Nəticədə, bu tip vahidlərin ən vacib əlamətlərini aşağıdakı şəkildə qruplaşdıra bilərik [60]:

1. Bu birləşmələr tərkibinə görə sabit qalır;

2. Frazeoloji vahidlər danışıq prosesində hazır formada yaranır və mövcud olur;

3. Bu tip birləşmələrin tərkibində işlənən sözlər ilkin, həqiqi mənalarından uzaqlaşır və ancaq məcazi mənada istifadə edilir;

4. Frazeoloji birləşmələrin tərkibində iki və daha artıq söz işlənə bilir;

5. Frazeoloji birləşmələr bütöv leksik vahidlər kimi xarakterizə olunur və eləcə lüğətlərə düşürlər;

6. Biz bu tip birləşmələrin əksəriyyətini bir sözün köməyi ilə ifadə edə bilərik;

7. Frazeoloji birləşmələr tərkib hissələrinə ayrılmır və bütöv bir cümlə üzvü rolunda çıxış edir.

Frazeologiya geniş şəkildə öyrənilmədiyi üçün bu sahənin əsas tədqiqat obyekti hesab olunan söz birləşmələri üçün hələlik konkret bir termin yaradılmamışdır. Belə ki, bu ifadələr hələ də frazeoloji ifadələr, frazeoloji birləşmələr, sabit söz birləşmələri, idiomatik ifadələr, frazemlər olmaqla bir çox terminlərin köməyi hesabına adlandırılır.

Beləliklə, frazeoloji birləşmələrin dilçilikdə geniş şəkildə istifadəsi, onların məzmun və forma cəhətdən zənginliyi bir çox tədqiqatçıların diqqətini cəlb etmişdir. Dilçiliyin frazeologiya bölməsində öyrənilən bu birləşmələrin idiomlar, ibarələr, hikmətli sözlər, atalar sözləri, zərb məsəllər və tapmacalar kimi bir çox növləri var. Alimlər tərəfindən frazeologiya linqvistik bir sahə kimi səciyyələndirilir. Dilçiliyin bu sahəsi dilin zənginliyini, ifadəliliyini, eləcə də obrazlılığını təmin edir. Eyni zamanda frazeoloji ifadələr dilin köməkliyi ilə ünsiyyət prosesini daha emosional və canlı hala gətirir. Bizim tədqiqat işində əsas məsələ isə dilçiliyin frazeologiya bölməsində öyrənilən idiomatik ifadələrin araşdırılması, leksik-qrammatik quruluşunun tədqiq edilməsi, bu ifadələrin ideya-məzmun xüsusiyyətlərinin təhlili, eləcə də onların təsnifatının verilməsi ilə bağlıdır. Ümumiyyətlə, idiomların frazeologiyada öyrənilməsi daim mübahisəli məsələlərdən olmuşdur. Bəzi dilçi alimlər bu sahənin ayrılıqda

müstəqil sahə kimi tədqiq olumasını, bəziləri isə həmin ifadələrin frazeologiyanın tərkibində öyrənilməsini məqbul hesab etmişlər.

Mövzunun aktuallığı: İngilis dilinin leksik fonunda idiomatik birləşmələr çox geniş yerə malikdir. Bir dili öyrənmək üçün onun lüğətini öyrənmək çox böyük əhəmiyyət kəsb edir. İngilis dilini öyrənmək üçün ilk növbədə biz bu dilin frazeologiyasını ətraflı şəkildə öyrənməliyik. İngilis dilində idiomlar dilin böyük bir hissəsini təşkil edir. Bu, onu göstərir ki, həmin vahidlər ingilis xalqının mədəniyyətində, məişətində, ictimai, hətta siyasi həyatında bir möhürdür.

Bizim tədqiqat işinin mövzusu "İdiomların iki müxtəlifsistemli dillərdə (İngilis-Azərbaycan) işlənməsi və hər iki dilin məna çalarlarına müsbət təsiri"ni əhatə edir. İngilis və Azərbaycan dillərində idiomların araşdırılması, komponentlərinin analizi və xüsusi əlamətlərinin tədqiqi dilçilik elminin məşğul olduğu mühüm nəzəri məsələlərdəndir.

Tədqiqatın obyekt və predmeti: Obyekt və predmet elmi-tədqiqatın kateqoriyaları hesab edilir. Bu iki kateqoriya aralarında ümumi və xüsusi nisbəti bölüşdürürlər. Tədqiqat işinin predmeti hissəsinə xidmət edən sahə obyektdə öz əksini tapır. Tədqiqat işinə təyinat verən hissə isə predmetdir və bu səbəbdən də elmi işin adı ilə uzlaşır.

Elmi işin obyekti İngilis-Azərbaycan dillərində istifadə olunan idiomlardır. Dilçilikdə geniş şəkildə istifadə olunan idiomatik ifadələr söz, söz birləşməsi və cümlə kimi həm dilçiliyin, həmçinin də nitq prosesinin obyekti kimi xarakterizə edilir. Beləliklə, biz idiomatik ifadələri vacib elm sahələrindən biri olan dilçilikdə öyrənməli və tədqiq etməliyik.

Elmi işin predmeti isə hər iki dilin məna çalarlarına müsbət təsiridir.

Məqsəd və vəzifələri: Dilçilikdə idiomatik ifadələr geniş şəkildə istifadə olunduğu üçün bu sahə ilə bağlı çoxlu sayda tədqiqatlar aparılmışdır. Aparılan tədqiqatın əsas məqsədi həm İngilis, həm də Azərbaycan dillərində, yəni iki müxtəlifsistemli dildə

idiomatik ifadələrin istifadə olunması və bu ifadələrin hər iki dilin məna çalarlarına təsirini araşdırmaqdan ibarətdir.

Müasir dövrümüzdə idiomatik ifadələrlə bağlı məsələlər öz aktuallığını qoruyub saxlamağa davam edir.

Öyrəndiyimiz kimi, idiomatik ifadələr müxtəlif üslublarda, bizim adi, gündəlik nitqimizdə, həmçinin də folklor ədəbiyyatında geniş şəkildə istifadə edilir. Tədqiqat işinin vəzifələri aşağıdakılardır:

- Mövzu ilə bağlı lazım olan elmi-nəzəri ədəbiyyatlarla tanış olmaq;
- Dilçilikdə idiomatik vahidlərin adlandırılmasında hansı terminlərdən istifadə olunduğunu müəyyənləşdirmək;
- Müasir İngilis və Azərbaycan dilində istifadə edilən idiomatik vahidlərin yaranma mənbələrini tədqiq etmək;
- Müxtəlifsistemli dillərdə bu ifadələrin ekvivalentliyi ilə bağlı dilçi alimlər tərəfindən verilmiş ayrı-ayrı fikirləri nəzərdən keçirmək və İngilis dilinin frazeologiyasında istifadə olunan müxtəlif ifadələrin Azərbaycan dilində ekvivalentini müəyyənləşdirmək;
- İdiomatik vahidlərin leksik və qrammatik quruluşunu təhlil etmək;
- Geniş formada istifadə edilən həmin vahidlərin oxşar tərəflərini, eləcə də müxtəlif vahidlərin leksik və semantik əlamətlərini daha dərindən incələmək;
- İngilis-Azərbaycan dillərində idiomların ideya məzmun və semantik xüsusiyyətləri, eləcə də forma baxımdan rəngarəngliyini, həmin ifadələrin işlənmə dairəsinin genişliyini tədqiq etmək;
- İdiomların müxtəlif alimlər tərəfindən verilmiş təsnifatlarını təhlil etmək.

Tədqiqat işinin nəzəri metodoloji bazası. Bizim tədqiqat işində İngilis və Azərbaycan dilində istifadə olunan idiomatik vahidlərin yaranma mənbələri, leksik və semantik quruluşu, ekvivalentliyi, ideya-məzmun xüsusiyyətləri, eləcə də təsnifatı məsələləri tədqiq edildiyi üçün sistemli və müqayisəli təhlil, qarşılaşdırma, müşahidə üsullarından istifadə edilmişdir.

Tədqiqat işinin elmi yeniliyi: İdiomatik vahidlərin dilçiliyin frazeologiya sahəsindəki yeri, bu vahidlərin müxtəlif üslubi məqamlarda işlənməsi, bir dildə istifadə olunan ifadələrin başqa bir dildə qarşılığının tapılması və s. kimi bir çox məsələlər daim dilçilərin diqqətini cəlb etmişdir. İngilis dilinin idiomatik sistemi ilə bağlı olan bu kimi məslələrin araşdırılması bu sahənin sistemli şəkildə inkişafına təkan vermişdir. Mənim dissertasiya işimdə yuxarıda qeyd etdiyim məqamlarla yanaşı, idiomatik ifadələrin semantik xüsusiyyətləri, yaranma yolları, leksik-qrammatik quruluşu ilə bağlı məsələlər də öz əksini tapmışdır.

Tədqiqat işinin elmi və praktik əhəmiyyəti: Bu işin elmi əhəmiyyəti odur ki, ingilis dilinin idiomatikası burada sistemli şəkildə tədqiq edilir. Dildə istifadə olunan müxtəlif idiomatik vahidlər müəyyən cəhətlərinə görə təsnif olunur.

Praktik əhəmiyyəti dedikdə onun ümumi dilçiliklə yanaşı, xüsusi dilçilikdə də idiomatik vahidlərin tədqiq edilməsində, ingilis dilində istifadə edilən idiomatik vahidlərin Azərbaycan dilinə tərcüməsində, həmçinin də idiomlardan ibarət lüğətlərin yaradılmasında mühüm əhəmiyyəti nəzərdə tutulur.

Tədqiqat işinin aprobasiyası: Bu tədqiqat işi ADU-nun Təhsil-2 fakültəsinin nəzdində fəaliyyət göstərən Linqvokulturologiya kafedrası tərəfindən müzakirə edilərək müdafiə üçün hazır olduğu irəli sürülmüşdür.

Tədqiqat işinin strukturu: Tədqiqat işi giriş, iki fəsil, iki yarımfəsil, nəticə, lüğət və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin birinci fəslində idiomatik ifadələrin əmələgəlmə üsulları tədqiq edilmiş, bu haqda müxtəlif dilçilər tərəfindən söylənmiş fikirlər tədqim olunmuşdur. Elmi işdə ilk fəslin birinci yarımfəslində idiomatik ifadələrin leksik-qrammatik quruluşundan bəhs edilmişdir.

İkinci fəsildə isə İngilis dilçiliyinin frazeologiyasında idiomların rolu və onların Azərbaycan dilində ekvivalenti problemi ön plana çəkilmişdir. Bu fəslin yarımfəslində əsas məsələlər İngilis-Azərbaycan dillərində idiomların ideya məzmun və semantik xüsusiyyətləri, eləcə də idiomların təsnifatı ilə bağlıdır. Tədqiqat işində müxtəlif dövrlər ərzində istər İngilis, istərsə də Azərbaycan dilçiliyində mühüm əhəmiyyət kəsb edən

sahə olan idiomatik ifadələr haqqında fərqli alimlərin irəli sürdüyü çox maraqlı məlumatlar, bölgülər və s. oxuculara çatdırılmışdır.

İşin glossary hisəsində tədqiq olunmuş mövzuda istifadə olunan bəzi idiomatik ifadələr ümumiləşdirilərək paylaşılmışdır.

Nəticə qismində fəsillərdə araşdırılmış, qeyd olunmuş məlumatlar daha qısa və konkret şəkildə ifadə edilmişdir.

Ən sonda isə bu işin ərsəyə gəlməsində istifadə edilmiş ədəbiyyatların siyahısı təqdim edilmişdir. Ümumi tədqiqat işində 35 Azərbaycan, 1 türk, 7 rus, 10 ingilis ədəbiyyatından, 2 lüğətdən, 2 bədii ədəbiyyatdan və 10 internet resursundan istifadə edilmişdir.

I FƏSİL

İDİOMATİK İFADƏLƏRİN ƏMƏLƏGƏLMƏ MƏNBƏLƏRİ

Dil insanların ən böyük və mühüm kəşfi olmaqla bərabər insan həyatının, demək olar ki, bütün sahələrini əhatə edir. Məşhur alman dilçisi Vilhelm Humbolt öz əsərlərində dilin birgə fəaliyyət göstərmək tələbatından meydana gəlməsi haqqında müxtəlif fikirlər irəli sürmüşdür. Məşhur alim qeyd edir ki, dilin ilkin, başlanğıc mənbəyi insanlar üçün sanki əlçatmazdır. Şübhəsizdir ki, dil insandan əmələ gəlmişdir. İnsan yalnızca dili sayəsində insandır, yəni dil olmadan insan yaşaya, mövcud ola bilməz. Həmçinin, insanlarda dünyagörüşünün formalaşmasında dil mühüm rola malikdir. Dilçi alim qeyd edir ki, xalqın ruhu onun dili, eləcə də xalqın dili onun ruhudur. Dilin inkişafı yalnızca cəmiyyətdə mümkündür və biz dilə yaradıcı bir proses kimi yanaşmalıyıq [26, s. 39].

Azərbaycanın məşhur dilçi alimlərindən biri olan A.Babayev də öz tədqiqatlarında dilin insan həyatında oynadığı rolun vacibliyindən danışır. O, dilin ictimai hadisə olduğunu və digər bütün ictimai hadisələr arasında ən qədimi olduğunu vurğulayır. O, bunu belə izah edir ki, bütün ictimai hadisələrin formalaşması üçün cəmiyyət lazımdır, cəmiyyət özü isə dil olmadan formalaşa bilmir. Düzünü desək, dil və cəmiyyət arasında qaşılıqlı asılılıq əlaqəsi mövcuddur [4, s. 163-175].

Hər bir dilin leksik sistemində, eləcə də lüğət tərkibində insan nitqini və fikrini daha obrazlı, ifadəli, yaddaqalan edən və dildə müstəqil şəkildə mövcud olan bir çox birləşmələr müşahidə olunur. Dilçilik elmi isə bu birləşmələri iki əsas qrupa ayırır:

1. Sərbəst və ya qeyri-sərbəst;
2. Sabit və ya qeyri-sabit birləşmələr.

Sərbəst söz birləşmələri danışan tərəfindən nitq prosesi zamanı müstəqil şəkildə yaradılır. Bu birləşmələrin tərkib hissəsini təşkil edən komponentlər müstəqil lesik mənaya sahib olur. İkinci qrup birləşmələr, yəni sabit söz birləşmələri isə dildə hazır

formada olur və danışan tərəfindən istifadə olunur. Dilçilik elmində sabit söz birləşmələri və ya qeyri-sabit söz birləşmələri frazeologizmlər, eləcə də frazeoloji birləşmələr adlandırılır.

İngilis dilçiliyində müəyyən sahələr var ki, müxtəlif tarixi mərhələlərdən keçmişdir. Bu sahələrdən biri də frazeologiyadır. Dilçilikdə geniş şəkildə istifadə olunan bu sahə ingilis dilinin öyrənilməsində mühüm rol oynayır. İngilis dili frazeoloji vahidlərlə zəngin bir dildir. Ona görə də ilk növbədə bu dili öyrənərkən onun frazeologiyasına da diqqət etmək lazımdır. Ümumiyyətlə, frazeoloji vahidlər xalq təfəkküründün mücərrədləşdirmə qabiliyyətinin nəticəsi kimi meydana çıxır. İngilis dilinin frazeologiyası müəyyən dilçilərin diqqətini cəlb etmişdir. Bir çox dilçilər ingilis dilinin frazeologiyasını araşdırmış və bu araşdırmaları öz əsərlərində əks etdirmişlər. Bu dilçilərdən biri də A.Kunindir. Onun əsərlərində əks etdirdiyi fikirləri özündən sonra gələn nəsillərin dilçiləri üçün mənbə olmuşdur. Frazeologiya dedikdə ümumi bir sahə nəzərdə tutulur. Çünki biz frazeologiyada yalnız frazeoloji vahidləri deyil, eləcə də çoxlu sayda frazemləri, idiomatik birləşmələri və ya vahidləri öyrənirik.

Sabit söz birləşmələrinin həm məzmun, həm də forma cəhətdən zənginliyi dilçilik elmində həmişə diqqət çəkən məsələlərdən biri olmuşdur. Məhz bu səbəbdən ötrü də dilçilik elminin şöbəsi olan frazeologiya leksikologiyanın vacib bir bölməsi hesab edilir. İnsanların öz fikirlərini daha kokret, qısa və yığcam şəkildə çatdırmasında və ya ifadə etməsində sabit söz birləşmələri əvəzedilməz rol oynayır.

Dilçilikdə istifadə edilən sabit söz birləşmələrinin, dəyişməz ifadə və ibarələrin toplusu frazeologiya adlandırılır. Sabit söz birləşmələri daşlaşır və sərbəst dil vahidi rolunu oynayır. Həmin ifadələri dilçilikdə bəzən frazeoloji birləşmə kimi də səciyyələndirirlər. Həmin birləşmələr bəzi vaxtlar birinci komponentinə görə, başqa hallarda isə digər bir komponentinə görə başa düşülür, digər vəziyyətlərdə isə bütövlükdə tərkib hissələrinin mənaları köçürülür və belə olan halda təkcə kontekstin köməyi ilə onların mənalarını başa düşmək mümkün olur. Dilçilik ədəbiyyatlarından

göründüyü kimi, frazeoloji vahidlərin böyük bir qismi feil komponentlidir. Dilçilik ədəbiyyatlarında həmin feilləri semantik əlamətləri əsasında müəyyən qruplara bölürlər.

Dilçilikdə istifadə edilən frazeologiya termini öz tarixini yunan dilçiliyindən götürür. Bu termini ki yunan sözünün *phrases (ifadə)* və *logos (elm)* əlaqəsindən yaranmışdır. Dilçilik elminin bu sahəsi sabit söz birləşmələrinin yaranmasını, tarixi dövrlər ərzində dəyişməsini, müxtəlif əlamətlərini, forma, eləcə də ideya-məzmun baxımdan rəngarəngliyini, istifadəsini, bununla yanaşı onların leksik, semantik və qrammatik quruluşunu, həmçinin də dildə istifadə edilən digər növ ifadələrlə arasıdakı bağlılığı və s. araşdırır.

Frazeologiyanın tədqiqat obyektinin dəqiq müəyyənləşdirilməsi məsələsi dilçilik elmində əsas diqqət mərkəzində olan problemlərdən biridir. Frazeologiyanın tədqiqat obyekti, əsasən, iki mənada, yəni dar və geniş mənada göstərilir. Geniş mənada dedikdə frazeologiyanın sabit söz birləşmələri, atalar sözləri, məsəllər, idiomlar, ibarələrdən və s. bəhs etməsi fikri nəzərdə tutulur. Dar mənada isə frazeologiyanın müxtəlif frazeoloji birləşmələrdən, yəni ayrı-ayrı sözlərə ekvivalent olan vahidləri öyrəndiyi qeyd edilir.

Frazeoloji vahidlər kommunikativ məqsədlərə xidmət üçün istifadə olunan söz birləşmələri kimi səciyyələndirilir. Milli səviyyəli olması frazeoloji birləşmələrin əsas xüsusiyyətlərindən biridir və bu birləşmələr başqa dilə eyni cür, yəni olduğu kimi tərcümə edilə bilmir, belə olan halda tərcümə edilən frazeoloji birləşmənin digər dildəki münasib ekvivalentini tapmaq lazım gəlir. Xarici dilləri dərindən və daha yaxşı öyrənmək istəyən şəxslər üçün frazeoloji vahidlər böyük əhəmiyyət kəsb edir.

Frazeoloji birləşmələr məna müxtəlifliyinə, semantik quruluşuna, işlənmə mövqelərinə görə təsnif olunur. Frazeoloji birləşmələrin təsnifatının verilməsində A.Kunin də mühüm rol oynamışdır.

Frazeoloji birləşmələr A.Kunin tərəfindən yaranma yollarına görə təsnif edilmişdir [62]:

- Müstəqil mənalı sözlərin birləşib öz mənalarını itirməsilə əmələ gələn frazeoloji birləşmələr – *"granny farm"* (yaşlı insanların yaşadığı ev); *house of cards* (asanlıqla pozula biləcək plan)
- Alliterasiya vasitəsilə yaranan frazeoloji birləşmələr – *"a sad sack"* (tənbəl), *"culture vulture"* (sənət dəlisi);
- Nidalar vasitəsilə yaranan frazeoloji birləşmələr – *"Hear, hear!"* (Yaşa!);
- Arxaizmlər vasitəsilə yaranan frazeoloji birləşmələr – *"in brown study"* ("in gloomy meditation") mənasında;
- Öz qrammatik quruluşunu dəyişməklə yaranan frazeoloji birləşmələr – *"make hay while the sun shines"* birləşməsi öz formasını dəyişərək *"to make hay while the sun shines"* (yağış yağanda qabını doldurmaq) kimi işlədilir;
- Bənzətmə ilə yaranan frazeoloji birləşmələr – *"curiosity killed the cat"* əvəzinə *"care killed the cat"* (həddindən artıq maraq pişiyi öldürür) birləşməsi istifadə olunur;
- Başqa dillərdən alınan frazeoloji birləşmələr – *"living space"* ((yaşam sahəsi (Alman)), "to take the bull by the horns" ((çətinliklərə qarşı qoymaq (Latın)).

Kunin, həmçinin, frazeoloji vahidlərdən danışarkən onların funksiyalarının da təsnifatını vermişdir. O, frazeoloji vahidlərin kommunikativ, koqnitiv, eləcə də nominativ olmaqla 3 əsas daimi funksiyanı yerinə yetirdiyi fikrini irəli sürmüşdür. Kommunikativ funksiya dedikdə bu vahidlərin ifadə etdiyi mənalar nəzərdə tutulur. Nominativ funksiya isə həmin birləşmələrin müəyyən bir əşyanı, əlaməti, keyfiyyəti, sayı və s. ifadə etməsi ilə əlaqəlidir. Frazeoloji vahidlərin idraki funksiyası daha çox nominativ funksiya ilə əlaqələndirilir. Burada şüur vasitəsilə real dünyanın obyektlərinin sosial cəhətdən müəyyənləşdirilməsi əsas məsələdir [52, s. 2].

Frazeoloji birləşmələrin sintaktik cəhətdən təsnifatı isə I.Arnold tərəfindən təklif olunmuşdur. O, öz təsnifatında frazeoloji birləşmələri aşağıdakı şəkildə qruplaşdırmışdır [48, s. 3-4]:

- Nominal phrases – *bullet train, bread and butter;*

- Verbal phrases – *to feel blue, to fly in the ointment;*
- Adjectival phrases – *blue in the face, loose as a goose;*
- Adverbial phrases – *like pulling teeth, like a dog with two tails;*
- Prepositional phrases – *on the stroke of, down in the mouth;*
- Conjuctional phrases – *as blind as a bat;*
- Interjectional phrases – *"Well, I never".*

Frazeologiyanın inkişafında mühüm rol oynayan dilçilərdən biri də akademik N.Şanski olmuşdur. O, frazeoloji vahidlərə dəqiq bir tərifin verilməsinin mümkün olmadığını söyləmişdir. Şanskiyə görə frazeoloji vahidlər sabit semantik məna və quruluşa malikdir. O, həmçinin, frazeoloji vahidlərin komponentlərinin öz sıralarını dəyişə bildiyini də qeyd etmişdir. Ümumiyyətlə, frazeologiya haqqında vahid bir fikir və yaxud da görüş yoxdur. İllər ərzində müxtəlif dilçilər frazeologiya haqqında öz fikirlərini söyləyərək ona müxtəlif tərifl ər vermişlər. Belə tərifl ərdən biri məşhur dilçi N.Şanski tərəfindən verilmişdir. O, frazeoloji birləşmənin şifahi mənşəli iki və ya daha çox komponentdən ibarət mənası, məzmunu və quruluşu ilə sabitlənmiş, eləcə də kəsilmiş bir dil vahidi olduğunu deyirdi. O, həmçinin, qeyd edib ki, frazeologizmlər və ya frazeoloji vahidlər ünsiyyət prosesində yaranmır, əksinə tam inteqral vahidlər şəklində yenidən qurulur. Həmçinin, frazeoloji vahidlərin bir-birinə yaxın qoyulmuş komponentlərdən ibarət olduğunu söyləmişdir. Məşhur akademik frazeoloji vahidləri dilin iki və ya daha çox komponentdən ibarət olan donmuş elementləri kimi xarakterizə edir [48, s. 3].

N.Amosova qeyd edir ki, dildə olan söz birləşmələrinin növünü yalnızca kontekst daxilində müəyyən etmək mümkündür. O, nümunə olaraq *"black frost"* birləşməsini tədqiq edir. Dilçi alim deyir ki, bu ifadəni sərbəst söz birləşməsi nöqteyi-nəzərindən təhlil etdikdə burada sifət müəyyən bir rəng çalarını ifadə edir. Amma hər hansısa bir kontekstin tərkibində bu ifadə sabit söz birləşməsi kimi *"frost without ice or snow"* mənasını bildirir [18, s. 172]. N.Amasova tərəfindən verilmiş təsnifata nəzər yetirsək,

frazeoloji vahidlərin yenidən iki qrupda verilmiş təsnifatını görmüş olarıq. Dilçi alim frazeoloji vahidləri frazemlər və idiomlar olmaqla iki qrupda birləşdirir [48, s. 4].

Frazeoloji birləşmələr haqqında tərif verən görkəmli dilçilərdən biri də Sofie Mujiri olmuşdur. O, frazeoloji vahidlərə lakonik bir tərif verərək deyir: "Frazeoloji vahidlər bir neçə sözdən ibarət olub, sintaktik və leksik cəhətdən birləşən ifadələrdir" [61].

Məşhur dilçi N.Teilyanın fikrincə, bir frazeologizm semantik olaraq bağlı olan söz birləşmələrinin və sintaktik quruluşuna görə bənzər, lakin formasına görə fərqlənən cümlələrin ümumi bir adıdır [61].

Başqa bir dilçi alim Q.Senina frazeoloji vahidləri semantik bağlı çoxluq, həmçinin də nitq prosesində yaranmayan, lakin təkrarlanan, eləcə də möhkəm semantikaya malik olan leksik-qrammatik vahidlər kimi səciyyələndirir [48, s. 3].

Müxtəlif dillərə aid olan frazeoloji vahidlərin müqayisə edilməsi məsələsi frazeologiya elminin təşəkkülündə və inkişafında mühüm əhəmiyyət kəsb edir. Müxtəlif dövrlərdə bununla bağlı dəfələrlə müxtəlif cəhdlər edilsə də, ötən yüzilliyin əlli və altmışıncı illərindən etibarən müsbət nəticələr əldə edilmişdir. Geridə qoyduğumuz yüzilliyin 60 və 70-ci dövrlərindən etibarən dilçilər frazeologiyanın müqayisəli şəkildə öyrənilməsinə daha çox maraq göstərməyə başladılar. Bu dövr ərzində əsas araşdırmalar german, roman, slavyan, eləcə də türk dillərinin frazeologiyası üzərində aparılmışdır. Müxtəlifsistemli dillərin frazeologiyası üzərində aparılmış bu tədqiqatlar həmin dillərə aid olan frazeoloji vahidlərin tipologiyasında bir çox ümumi cəhətləri aşkara çıxarır [21, s. 46].

İngilis dilində istifadə olunan frazeoloji vahidlərin çoxunun yaradıcısı naməlum olaraq qalır. İngilis dilində frazeoloji vahidlərin müxtəlif yaranma mənbələri qeyd olunur [59]:

a. ilk olaraq onların yaranması tarixi şərait və ya unudulmuş adətlə bağlı ola bilər. Məs.: *to burn one's boats – öz qayığını yandırmaq.* Bu frazeolojin vahidin yaranması qədim dövrdə sərkərdələrin qayıqlarını sahilə çıxardıqdan sonra

əsgərlərin geri çəkilməsinin qarşısını alınması məqsədilə qayıqları yandırmaq üçün verdikləri əmrlə bağlıdır;

b. frazeoloji vahidlərin yaranması, həmçinin, ədəbi sitatlar;
c. kalkalar;
d. müxtəlif peşə ifadələri, həmçinin də əyləncə, oyun, idmanla bağlı ola bilər.

Bizim dilimizdə olan frazeoloji vahidlərin bir çoxunun tarixi Kitabi-Dədə Qorqud dastanı ilə bağlıdır. Biz həmin dastanda istifadə olunan bir çox idiomatik birləşmənin müasir dövrdə də istifadə olunduğunu müşahidə edə bilərik. Məsələn, *ağzının suyu axmaq, acığı tutmaq, bağrı sarsılmaq* və s. Bəzən dildə elə frazeoloji vahidlərə rast gəlirik ki, dinin tarixi kimi onların tarixi də qədim dövrlərə qədər gedib çıxır, lakin bu ifadələrin frazeoloji vahid kimi işlənməsi, daha doğrusu, frazeoloji vahidlərə çevrilməsi prosesi çox uzun bir müddət tələb etmişdir. Məsələn, Azərbaycan dilində istifadə olunan "gündə bir xurma ilə yaşamaq" frazeoloji vahidi Adəm və Həvvanın cənnətdə olduğu zamanlar bir xurma ilə yaşadıqlarını ifadə etməsinə baxmayaraq, frazeoloji vahid kimi Cəlil Məmmədquluzadənin "Ölülər" əsərindən sonra dilin frazeoloji sisteminə daxil olub. Rəvayətdə Adəm və Həvvanın bir xurma ilə yaşadıqları həqiqi mənada ifadə olduğu üçün bu ifadə frazeoloji vahid kimi istifadə edilməyib. Məmmədquluzadənin əsərində isə bu ifadə məcazi mənada işlənmiş və bundan sonra frazeoloji vahidə çevrilmişdir. Ədəbiyyatda Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığında da frazeoloji vahidlərə çox hallarda rast gəlirik. Dili bütün dərinliklərinə və incəliklərinə qədər başa düşmədən frazeoloji vahidlərdən düzgün məqamda, yerli yerində istifadə etmək çətindir. Haqverdiyev öz yaradıcılığında daha çox alqış və qarğış tipli frazeoloji vahidlərdən (*evinə atəş düşsün, üstünüzə alov tökülsün, üstünə gün doğsun* və s.) istifadə etmişdir. Başqa bir frazeoloji vahidə nəzər yetirək. Ə.Haqverdiyevin dilində istifadə olunan *cürümünü çəkmək* müasir dilimizdə işlək deyildir və mənim fikrimcə, *başına oyun açmaq* frazeoloji vahidinə sinonimdir [59].

Məşhur rus dilçisi A.Kunin ingilis dilinin frazeoloji vahidlərini aşağıdakı şəkildə qruplaşdırır [59]:

- xalis ingilis frazeoloji vahidləri;
- başqa dillərdən alınan ifadələr;
- amerikan versiyasından əldə olunan birləşmələr.

Dilçilikdə frazeologiya nəzəriyyəsinin banisi fransız mənşəli məşhur İsveç dilçisi Şarl Balli hesab olunur. Dilçi alim 1905-ci ildə fərqli üslubda "Üslubiyyat oçerki" və "Fransız dilinin üslubiyyatı" adlı iki kitab yazır. Burada o, fəsillərdən birini frazeologiya adlandırır və frazeologizmləri sistem halında birləşdirir. Alim heç vaxt frazeologiyaya müstəqil sahə kimi yanaşmamışdı [44, s. 1137].

Şarl Balli söz birləşmələrinin dörd əsas qrupunu müəyyənləşdirmişdir: *sərbəst, adi, frazeoloji birləşmə və frazeoloji qruplar.* Biz frazeoloji vahidlər üçün fərqlənən əlamətləri öyrənən zaman *"bir frazeologizmin bir kəlmə ilə bərabərliyi"* kimi bir anlayışa diqqət yetirməliyik. Dilçilikdə frazeologizmin bir sözə ekvivalentliyi nəzəriyyəsi ilk dəfə məşhur dilçi Şarl Balli tərəfindən hazırlanmışdır. Onun fikrincə, bir frazeoloji yerləşmənin əsas əlamətləri indentifikator – sözün mümkünlüyü və ya mümkünsüzlüyüdür [58].

N.Rəhimzadə qeyd edir ki, Azərbaycan dilinin frazeologiyası rus dilçisi Vinoqradov tərəfindən verilmiş bölgüyə, demək olar ki, sığmır. Dilçi alim dilimizdə olan frazeoloji vahidləri iki əsas qrupda birləşdirir [21, s. 40]:

- Dəyişməzliyi, eləcə də məcaziliyi ilə seçilən ilk kateqoriya özündə idiomatik ifadələri cəmləşdirir;
- Bu qrupda isə o, fərqli əlaqələnmə həddinə, həmçinin də qrammatik əmələgəlməyə sahib tərkibləri birləşdirir. Bunlara malik olmasına baxmayaraq, bu tərkiblərin hamısı frazeologiyaya aid edilir. Belə tərkiblərə məcazi mənalı ifadələr, sintaktik quruluşlar, elmi-terminoloji kompozisiyalar aid edilir.

N.Rəhimzadə tərəfindən verilmiş bu təsnifat dilçilik elmində hələ də mübahisəli hesab olunur.

M.Mirzəliyeva sabit söz birləşmələrinin mütləq xüsusiyyətlərindən bəhs edərkən qeyd edir ki, frazeoloji vahidlərin ən vacib kateqorial əlaməti idiomatiklikdir. Bu əlamət,

demək olar ki, bütün türkoloqlar tərəfindən qəbul edilmişdir. Müəllif, həmçinin, idiomatiklik zamanı birləşmə və ya cümlənin mənasının onun tərkib hissəsini təşkil edən sözlərin mənasından ayrılması fikrini də vurğulayır. O, idiomatik ifadələrin müəyyənedici xüsusiyyətləri barədə danışır. Bu xüsusiyyətlər bir neçə birləşmədə komponentlərdən birinin məcazlaşması, bəzilərində isə semantik bütövlük, yəni hər hansısa bir sözə ekvivalentlik şəklində özünü göstərir. Bütün bunlar onu göstərir ki, idiomatik frazeoloji vahidlərin əsas aparıcı xüsusiyyəti olduğu üçün dilçilikdə çox zaman frazeologizmlər və idiomlar anlayışları bərabərləşdirilir [21, s. 39].

M.Mirzəliyeva frazeoloji vahidləri müəyyənləşdirmək üçün bir çox meyarlardan istifadə oluna biləcəyini təsdiq edir: 1) əsas məsələ bu vahidlərin dilə hazır şəkildə gəlmələridir; 2) digər bir yanaşma isə onların struktur cəhətdən qapalılığı ilə əlaqəlidir; 3) semantik bütövlüyü; 4) frazeoloji vahidlərin tərcümə oluna bilməməsi də əsas meyarlardan biridir. Bütün bu faktlara əlavə olaraq G.İsayeva "motivləşmə" amilini irəli sürür. Bu vahidlərin "quruluşunun dəyişməzliyi" məsələsində N.Seyidəliyev istisna hallar olduğunu qeyd edir. V.Qak isə bu haqda belə deyir: "Frazeoloji vahidlərin dəyişməzliyinin mərkəzində sadəcə leksik-semantik əlamətlər yox, eləcə də obrazın sabitliyi durur. Caiz leksik müxtəlifliklər, həmçinin də qrammatik çevrilmələr olsa da, xüsusən obrazın dəyişməzliyinə görə frazeoloji birləşmələr pozulmur" [24, s. 11].

Frazeoloji vahidlərin təsnifatı ilə bağlı alimlər müxtəlif bölgülər irəli sürmüşlər. Bu mövzu ilə bağlı irəli sürülmüş maraqlı fikirlərdən biri də M.Mirzəliyevaya aiddir. Dilçi alim frazeoloji vahidlərin müxtəlif prinsiplər əsasında qurulan bir neçə bölgüsünün olduğunu qeyd edir və aşağıdakı bölgünü əsas götürür:

1. Frazeoloji vahidlərin əhatə dairəsinə;
2. Semantik quruluşuna;
3. Leksik tərkibinə;
4. Əmələgəlmə prinsiplərinə;
5. Semantik qovuşma prinsiplərinə;
6. Ekspressiv-üslubi xüsusiyyətlərinə görə növləri.

Frazeoloji vahidlərin semantik qovuşma prinsipinə görə növləri dedikdə idiomatik vahidlərin müxtəlif tipləri – *qovuşmalar, uyuşmalar* və *birləşmə cinsli vahidlər* nəzərdə tutulur [21, s. 41].

Bu məsələyə dair müxtəlif alimlərin fərqli fikirlərini təhlil etdikdən sonra belə bir nəticəyə gələ bilərik ki, frazeoloji vahidlərin alimlərin əksər hissəsi tərəfindən qəbul edilən bir sıra spesifik xüsusiyyətləri vardır: *frazeologizmlərin məzmunu və quruluşunun sabitliyi, frazeologizmlərin nitqdə təkrarlanması, semantika bütövlüyü, quruluş möhkəmliyi* və s. aiddir.

Hamı tərəfindən istifadə olunan bu dilçilik vahidləri, yəni frazeologizmlər xalqın şüuru, eləcə də həyatı ilə yoğrulmuş və müxtəlif dövrlərin süzgəcindən keçib gəlmişdir. Dilçilikdə frazeologizmlər, atalar sözü və zərb-məsəllər büllurlaşmış fikirlər toplusu adlanır. Əgər biz onların semantik inkişafını nəzərə almasaq, onları qavramaqda və şərh etməkdə çətinlik çəkərik. Frazeologizmlərdə, atalar sözləri və zərb-məsəllərdə müxtəlif xalqların həyat tərzi, sevinci, kədəri, məhəbbəti, nifrəti, obrazlı təfəkkürü, adət-ənənələrinin izləri, milli ruhu və s. öz əksini tapıb. Ona görə də bu dil vahidlərinin forması gözəl və mənası dərindir. Çünki bu ifadələr xalqların əsrlər boyu yaratdığı mənəvi tükənməz sərvətdir və sözlərin düzülüşündə müəyyən ahəngdarlıq, musiqilik və s. vardır.

Dillərin frazeologiyasının müqayisəli şəkildə öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Frazeologiya ilə bağlı tədqiqatlar qədim dövrlərdən başlayaraq indiyə qədər davam etmişdir. İngilis dilinin frazeologiyasının Azərbaycan dili ilə müqayisəli öyrənilməsində prof. Nigar Vəliyevanın xüsusi xidmətləri olmuşdur. N.Vəliyeva frazeoloji lüğət yazmış və bu lüğətdə müasir Azərbaycan, ingilis və rus dillərində olan frazeoloji birləşmələri lüğətində cəmləşdirmişdir. Bəzi frazeoloji birləşmələrə baxaq [55, s. 507, 122, 508, 337, 509, 618]:

- *to make people quarrel with one another – kiminsə arasını vurmaq;*
- *someone is old in heart – bağrı daşa dönmək;*
- *to lead someone to trouble – kiminsə dünyasını başına dar eləmək;*

- *to say good-bye to all hopes – əlini, ümidini üzmək;*
- *to cause to be uneasy / anxious – kimisə nigaran qoymaq;*
- *to show one's cards – niyyətini açıq şəkildə göstərmək* və s. çoxlu sayda misallar göstərmək olar.

Müxtəlif tarixi dövrlərdən aşan sabit söz birləşmələri, atalar sözləri və zərb-məsəllər müasir dövrümüzdə də fikrin daha təbii və emosional, obrazlı şəkildə çatdırılmasında mühüm rol oynayır. Azərbaycan, rus və ingilis dillərinin frazeologiyasının müqayisəli şəkildə öyrənilməsi dilçiliyin inkişafında böyük əhəmiyyət kəsb edir. İlk öncə, sabit söz birləşmələrinin əmələgəlməsi və inkişafı məsələlərinin tədqiq olunması müxtəlif sistemə malik olan dillərin daim diqqət mərkəzində olmuşdur. Dilçilik elmində frazeoloji vahidlərin araşdırılması hər daim alimlərin maraq dairəsində olmuşdur. Mən düşünürəm ki, frazeoloji vahidlər, zərb-məsəllər, eləcə də qədim tarixə malik atalar sözləri olmadan biz dildən istifadə edə və ya onu inkişaf etdirə bilmərik.

Dilçilik elmində frazeoloji vahidləri adlandırmaqdan ötrü fərqli-fərqli terminlər irəli sürülmüşdür. Bu məsələ ilə bağlı məşhur dilçi alim S.Ojeqov öz fikrini söyləyib. Dilçi alim elm sahəsində frazeoloji vahidləri adlandırmaq üçün istifadə olunan idiomlar, frazeoloji birləşmələr, dəyişməz tərkiblər və s. əvəzinə yalnızca frazeoloji vahid anlayışından istifadə etməyin daha məqbul olduğunu qeyd edir [30, s. 6].

Dilçilikdə V.Flayşer sabit söz birləşmələrinin araşdırılması və öyrənilməsi ilə məşğul olan sahəni "frazeologiya" kimi səciyyələndirir. Dilçi alim, həmçinin, bu sahəni müəyyən bir dilin frazeoloji məcmusu kimi də xarakterizə edir [30, s. 7].

Frazeologizmlərin özünəməxsus formativ strukturu dedikdə müəyyən bir daxili mənasına görə bir araya gəlmiş vahidlərin birləşməsi nəzərdə tutulur. Həmin birləşmənin içərisində onu əmələ gətirən sözlər müəyyən bir həddə ilkin mənalarından uzaqlaşır, daha sonra isə yaranan birləşmənin tərkibində yeni bir məna kəsb edirlər [30, s. 7].

Sonda belə bir nəticəyə gəlirik ki, frazeologiya dilçilikdə ümumi bir anlayışdır və öz daxilində bir çox anlayışları birləşdirir. Bu anlayışlardan biri də idiom anlayışıdır.

İdiom yunan sözü olub, danışığın xüsusi bir şəkildə ifadə üsulu deməkdir. Yunan mənşəli söz ilk vaxtlar "idiotizm" şəklində istifadə olunmuşdur. Kobud məna ifadə etdiyinə görə bu sözün əvəzinə "idiom" anlayışı istifadə edilmişdir. Diliçilikdə istifadəsi açıq şəkildə göstərir ki, bu ifadələr özünəxas məzmuna malikdir. Dilçilikdə başqa dilə tərcümə edilməyən ifadələr dedikdə idiomlar nəzərdə tutulur. Sonralar idiom termini sözlərlə yanaşı, bütöv ifadələrə də şamil olunmuşdur [21, s. 36].

İdiom dedikdə iki və daha artıq müstəqil mənalı sözün birləşərək yeni bir məna kəsb etməsi nəticəsində əmələ gələn birləşmələr nəzərdə tutulur. Dilçilikdə idiomları bəzən nitq fiqurları da adlandırırlar. İdiomlar dilin öyrənilməsində mühüm rol oynayır. Həmçinin, onlar xalq etimologiyasına da böyük təsir göstərir. Danışıq prosesi idiomların yaranmasında çox mühüm əhəmiyyətə malikdir. Dilçilikdə mühüm əhəmiyyət kəsb edən bu birləşmələr müxtəlif millətlərin tarixini, həyat tərzini, mədəni həyatını və başqa millətlərlə olan təmasını daha əsaslı şəkildə tədqiq etməyə imkan verir. Bu sahə fərqli-fərqli dil sistemlərində meydana gələn ifadələrin istifadəsinin, inkişaf dinamikasının, müxtəlif millətlərin düşüncəsində, sivilizasiyasında, eləcə də gündəlik yaşamında yaranan uyğunluqlar və ya uyğunsuzluqların öyrənilməsində xüsusi rol oynayır.

İdiomatik ifadələrdə mədəni və tarixi məlumatlar öz əksini tapır. Bu ifadələr müəyyən bir dilin manipulyasıyanda, həmçinin də onun başa düşülməsində mühüm rol oynayır. İdomlar haqqında müxtəlif fikirlər söyləmişdir. Bunlardan birində idiomlar hər hansısa bir cəmiyyətə, xalqa, ölkəyə, nadir hallarda isə fərdə aid olan dil kimi xarakterizə edilir. İkinci bir halda isə idiomlar hərfi mənadan fərqli bir mənaya malik olan ifadələr və ya konstruksiyalar kimi səciyyələndirilir [46, s. 180]

İdiomalar haqqında fikir söyləmiş şəxslərdən biri də A.Makkai olmuşdur. Dilçi alim qedy edir ki, bu ifadələr bir neçə sözün birləşməsində yaranır, lakin biz həmin sğzlərin mənası ilə bu vahidin ifadə etdiyi mənanı müəyyənləşdirə bilmirik [53, s. 69].

Bu sahənin öyrənilməsində bir çox dilçilərin mühüm xidmətləri olub. Frazeologiyanın öyrənilməsiylə həm rus, həm xarici ölkə alimləri, həm də Azərbaycan dilçiləri məşğul olmuşlar. Rus dilçilərindən A.Şaxmatov, F.Fortunov, A.Peşkovski,

A.Potebnya frazeoloji vahidləri yalnız sintaktik nöqteyi-nəzərdən tədqiq etdikləri üçün bu vahidlərin bütün xüsusiyyətlərini tamamilə göstərə bilməmişlər. Azərbaycanda X.Əhmədova, İ.Rəhimov, N.Vəliyeva, Ə.Hacıyeva, T.Əsgərova, T.Quliyev və s. kimi şəxslər ingilis dilini digər dillərlə müqayisəli şəkildə tədqiq etmiş və frazeoloji lüğət ərsəyə gətirmişlər [35, s. 4].

Azərbaycan dilçiliyində frazeologiya bölməsi haqqında ilk məlumat M.Hüseynzadənin dərsliyində verilib. Daha sonralar S.Cəfərov, A.Qurbanov, N.Rəhimzadə, H.Bayramov da frazeologiyanın öyrənilməsinə öz dərsliklərində yer vermişlər. Bu dilçilərin hər biri frazeoloji vahidləri müxtəlif şəkildə adlandırıblar. Frazeoloji birləşmələrin adlandırılmasında H.Bayramov "sabit söz birləşmələri", S.Cəfərov "idiomatik ifadə", S.Murtuzayev "frazeoloji vahid" anlayışlarından faydalanıblar. Dilçiliyin sabit söz birləşmələrindən ibarət olan sahəsinin frazeoloji vahid və idiomatik vahidlərdən bəhs etməsi ideyası rus dilçi alimi N.Amosovanın fərziyyələrində də öz təsdiqini tapmışdır [21, s. 27-30].

"İngilis frazeologiyasının əsasları" kitabında məşhur dilçi N.Amosova dilçiliyin frazeologiya bölməsi haqqındakı araşdırmalarının ümumi prinsiplərini qeyd edir [21, s. 25]:

1. frazeoloji materialların tədqiq edilməsi üçün istifadə edilən metod mümkün qədər obyektiv olmalıdır;
2. frazeoloji materialın mənimsənilməsinin ilkin mərhələsi sinxron xarakter daşımalıdır;
3. frazeologiyada aparılan tədqiqatların bütün mərhələsində kontekstual metodun nəzərə alınması mühüm əhəmiyyət kəsb edir;
4. hər bir təqdiqat metodu seçilərkən həmən dilin konkret özünəməxsusluğuna önəm verilməlidir.

M.Adilov və G.Yusifovun «Sabit söz birləşmələri» əsərində qeyd olunub ki, dildə sabit söz birləşmələri mövcuddur və bu birləşmələr nitq prosesi zamanı düzəldilən sərbəst birləşmələrdən tamamilə fərqlidir, belə birləşmələr nitqə hazır şəkildə daxil olur

və dilin paradiqmasına xasdır. Müəlliflər, həmçinin, sabit söz birləşmələrindən bəhs edərkən idiomlar, frazeologizmlər, atalar sözləri, zərb-məsəllər, qanadlı sözlər və s. kimi terminlərdən də istifadə edirlər [2, s. 3-4].

Y.Seyidov sabit söz birləşmələrinin xarakterik cəhətlərindən danışarkən bu birləşmələrin bir-birindən müəyyən əlamətlərə görə fərqlənməsi fikrini irəli sürmüşdür. O, sabit söz birləşməsinin bir növü olan idiomları həmin birləşmələrin ən son inkişaf mərhələsi kimi səciyyələndirir. Alim, həmçinin, bu ifadələrin digər sabit söz birləşmələrinə nisbətən daha çox sabitliyə malik olduğunu da qeyd edir [29, s. 154].

Hər şeydən öncə, biz idiom dedikdə söz yığımı yox, bir-birinə müvafiq olan sözlərin birləşməsi nəticəsində yaranan bir vahid nəzərdə tutmalıyıq. Çünki dildə istifadə olunan bir sıra idiomlar natamam sayılır.

İdiomatik ifadələri bir dildən digər bir dilə tərcümə edərkən həmin ifadələrə uyğun bir ekvivalent tapılır və ya bu ifadənin mənasını düzgün şəkildə çatdırmaq üçün həmin dildə onu əvəz edə biləcək uyğun bir söz və ya ifadə tapılır. Əgər idiomatik ifadələri bir dildən başqa bir dilə tərcümə edən zaman bu sadaladığım şeylərə əməl olunmazsa, idiomatik ifadənin mənası təhrif oluna və çox qəribə mənalar yarana bilər. Dilçilikdə idiomatik ifadələrin bir dildən digər bir dilə tərcüməsi ilə bağlı iki məqam əsas götürülür [22, s. 324]:

1. İdiomatik ifadənin mənasına görə tərcümə edildiyi dildə həmin ifadəyə uyğun bir sinonim ifadə tapılır;
2. Digər bir halda isə tərcümə olunan idiomun üslubi xüsusiyyətlərinə uyğun olan oxşar və ya çox yaxın bir ifadə istifadə olunur.

İdiomların bir dildən başqa bir dilə tərcüməsi ilə bağlı fikir söyləyən alimlərdən biri P.Nyumark olmuşdur. Dilçi alim qeyd edir ki, hər hansısa bir ifadəni tərcümə edərkən tərcüməçi həmin ifadənin müəyyən bir məna kəsb edib-etməməsinə diqqət etməlidir. O, bildiri ki, idiomlar dilin təbii istifadəsində mühüm rola malikdir [49, s. 6].

İdiomatik ifadələrin başqa xalqlara ötürülməsində tərcümə üsulu böyük rol oynayır. Ümumiyyətlə, idiomların bir dildən başqa bir dilə ötürülməsi həmin ifadələrin

kütləviləşməsinə, eləcə də məna cəhətdən beynəlxalq əhəmiyyyət qazanmasına yol açır [32, s. 11]. Bu prosesdə mətbuat, radio və televiziyanın imkanları xüsusi əhəmiyyət kəsb edir [45, s. 75].

Danışıqda geniş şəkildə istifadə olunan idiomatik ifadələr bəzən evfemistik xarakterə malik ola bilər. Bu xüsusiyyət onunla bağlıdır ki, bəzi hallarda hər hansısa bir fikri çatdırarkən müəyyən bir idiomun birbaşa istifadəsi nəzakətsizliyə səbəb ola bilər. İdiomların bu xarakteri məhz həmin nəzakətsiz səslənən fikri dolayı yolla, eləcə də daha incə şəkildə çatdırır [34, s. 286].

İdiomatik ifadələrin tərkib hissəsini təşkil edən sözlər bəzi hallarda bizim üçün qeyri-məntiqi, əcaib, həmçinin də qrammatik cəhətdən düzgün görünməyə bilər. Lakin, bununla belə, həmin ifadələri dəyişdirmək mümkün deyil. Bu ifadələr dilin lüğət tərkibinə daxil olduqları şəkildə öyrənilməlidir.

İdiomatik vahidlərdə ifadə olunan mənanın məntiqə uyğun olması, demək olar ki, absurd bir gözləntidir. Bu ifadələr çox vaxt məntiqə zidd olan və qeri-real xarakterdə olur. Məntiqə zidd olmaq xüsusiyyəti isə qətiyyən idiomun istifadəsinə mənfi təsir etmir, əksinə bu xüsusiyyət həmin idiomun daha ifadəli və emosional olmasına səbəb olur, həmçinin də semantik cəhətdən üslubi çalarlığını təmin edir [11, s. 102]. Real olmayan idiomlardan bir neçəsinə diqqət yetirə bilərik: *to eat the calf in the cow's belly – çaya çatmamış çirmələnmək, to milk the bull – lazımsız bir işi görmək, to hit the bird in the eye – tam on ikidən vurmaq.*

Beləliklə, biz idiomatik ifadələri bir çox xüsusiyyətlərinə görə qruplaşdıra bilərik [22, s. 274]:

- İdiomatik ifadələr mənaca hər hansısa bir sözün ekvivalenti hesab edilir. Beləcə, idiomlar bu əlamətinə görə digər tərkib hissələri bir-birinə bağlı olub bir məna ifadə edən birləşmələrdən fərqlənir;
- İdiomlar dilçilikdə müəyyən söz qrupundan ibarət olduğu üçün bəzi sözlərin məcazi mənaları, eləcə də mürəkkəb sözlər bu sahəyə daxil edilmir;

- Bu ifadələrin tərkib hissələri arasında qrammatik əlaqələr, demək olar ki, hiss edilmir. Bu, o deməkdir ki, idiomatik ifadəni əmələ gətirən tərkib hissələri arasında leksik-qrammatik asılılıq silinib və bu ifadələr söz birləşməsi və ya cümlə şəklində formalaşaraq mənaca parçalanmaz hala gəlmişdir;
- Dilçilikdə istifadə edilən bu ifadələr sabit söz sırasına malik olur. Qeyd olunan bu bütövlük isə daha çox onların mənası ilə əlaqəlidir.

Biz bilirik ki, bədii ədəbiyyatda mətn müəllifin, eləcə də obrazların danışığı əsasında yaradılır. Əsərdə müəllifin nitqi ədəbi dilin normalarına uyğun şəkildə qurulmasına baxmayaraq, sürətlərin nitqində ədəbi dilin normslarından müəyyən qədər uzaqlaşma ola bilir. Ədəbiyyatda obrazların dili ümumi və fərdi ola bilir. Belə ki hər bir obraz mənsub olduğu xalqın, millətin öz ana dilində danışır. Həmin obrazın öz danışığında istifadə etdiyi idiomatik ifadələr onun mənsub olduğu xalqın milli koloritini əks etdirir [34, s. 66].

İdiomatik vahidlər mənanın qüvvətlənməsi üçün müəllif tərəfindən istifadə olunan lap səmərəli üsullardandır. Bu vahidləri digər leksik birləşmələrdən fərqləndirən əlaməti kompleks kommunikativ xüsusiyyətlərə malik olmasıdır [30, s. 8].

Dilçilikdə idiomatik vahidlərin əmələgəlmə yollarından biri də bədii əsərlər hesab edilir. Belə ki, hər hansısa bir idiomatik ifadə müəllifin müəyyən bir işindən alınır, daha sonra isə bədii dildən ədəbi danışıq dilinə keçir. Bu da öz növbəsində idiomların məşhurlaşmasına və nəsildən-nəslə ötürülməsinə səbəb olur [45, s. 68].

İngilis dilində idiomatik ifadələrin bədii üslubda istifadəsi poeziya ilə yanaşı, nəsr istiqamətində də müşahidə edilir.

Nümunə:

He at the last appointed him on one,

And let all others from his hearte gone,

And chose her of his own authority,

For love is blind all day, and may not see [56, s. 244].

İdiomatik ifadələrin nəsrdə işlənməsi ilə bağlı da bəzi nümunələrə baxa bilərik. Misal üçün:

At any monent that you liked to crook your little finger, old man Dornford would fall on his kness to you – Bir barmağını tərpətməyin kifayətdir, yaşlı Dornford sənin qabağında diz çöksün [57, s. 343].

Dilçilikdə milli səciyyə daşıyan idiomatik ifadələrin çox qədim tarixə malik olduğu artıq hamımıza məlum oldu. İdiomatik ifadələrin əsas əmələgəlmə yollarından biri də onların mənsub olduğu xalqın həyatı, adət-ənənələri, peşəsi, dini təsəvvürləri, mifik rəvayətləri, eləcə də dünyagörüşü hesab edilir. Bu vahidlər müxtəlif dövrlər ərzində dilin inkişafı və onda baş verən dəyişikliklərlə əlaqəli olaraq yaranmış, daha sonra isə dilin lüğət tərkibinə daxil olaraq uzun müddət orda yaşamışlar [27, s. 60].

Müsair ingilis dilində biz idiomatik ifadələri aşağıdakı yaranma yollarına görə qruplaşdıra bilərik [13, s. 89]:

- Atalar sözü, eləcə də məsəllər əsasında yaranan ifadələr;
- Dilin daxili imkanları hesabına meydana gələn idiomatik ifadələr;
- Alınma sözlər hesabına yarananlar;
- Müəyyən rəvayətlər əsasında yaranan idiomatik ifadələr.

Atalar sözü və məsəllər hesabına meydana gələn vahidlər. Bildiyimiz kimi, atalar sözləri və məsəllər şifahi xalq ədəbiyyatında ən qədim və ən əsas janrlardan biri hesab edilir. Xalqın həyat tərzini, adət-ənənələrini obrazlı şəkildə əks etdirən bu ifadələr predikativ xüsusiyyətə malik vahidlər kimi səciyyələndirilir [14, s. 260]. Hər hansısa bir ideyaya istinad etməyə kömək edən bu vahidlər bir vasitə kimi həm bədii ədəbiyyatda, həm də adi danışıq dilimizdə geniş şəkildə istifadə edilir [33, s. 598]. Atalar sözü və məsəllərdə də idiomatik vahidlər kimi sabit söz sırası və tərkib olur. Atalar sözü, məsəllər və idiomatik ifadələr arasında oxşarlıq olmasına baxmayaraq, onlar arasında müəyyən cəhətlərinə görə fərqlilik də müşahidə edilir. İdiomaların tərkib hissəsini təşkil edən komponentlər öz ilkin mənasını itirdiyi halda, atalar sözlərində isə bu xüsusiyyət çox müşahidə edilmir. Onlar arasında digər bir fərq isə həmin ifadələrin quruluşu ilə

əlaqəlidir. Atalar sözləri və məsəllər daha çox cümlə formasında olur və onlar bitmiş fikir ifadə edir. Bəzi atalar sözlərinə baxaq. Məsələn, *like father, like son – oğul atasına bənzər, a clean hand wants no washing – vicdanı təmiz olan şəxsin bəraətə ehtiyacı yoxdur*. Bu atalar sözü dilimizdə geniş şəkildə istifadə etdiyimiz *a clean hand* idiomunun yaranmasına səbəb olmuşdur. Hansı ki bu idiom təmiz ad mənasında istifadə edilir.

Qeyd etdiyimiz kimi, atalar sözləri və idiomatik vahidlər kimi zərbi-məsəllər də dilçilikdə geniş şəkildə yayılmışdır. Belə ki, mənasına və qrammatik quruluşuna görə atalar sözlərinə bənzəyən bu ifadələr bir neçə xüsusiyyətinə görə onlardan fərqlənir. Atalar sözlərindən fərqli olaraq zərbi-məsəllərdə ifadə olunan fikir tamdır. Bəzi məsəllərə nəzər yetirək. Məlәsən, *many hands make light work – el gücü sel gücü, tək əldən səs çıxmaz; have your cake and eat it too – eyni anda bir neçə yaxşı şeyi edə bilmək* və s.

Dilin daxili imkanları hesabına yaranan idiomatik ifadələr. İngilis dilində istifadə edilən idiomatik ifadələrin bir qismi dilin daxili, digər bir qismi isə dilin xarici imkanları, yəni digər dildən gələn sözlər əsasında meydana gəlib. Bu qrupa daxil olan vahidlər isə ingilis dilində üstünlük təşkil edir. Bu qrupun tərkibinə daxil olan ifadələr ümumi idiomatik ifadələr və xüsusi idiomatik ifadələr olmaqla fərqləndirilir [12, s. 101]. Ümumi idiomatik ifadələr daha çox xalqın həyat tərzi, adət ənənəsi ilə bağlı olaraq yaranan ifadələrdir. Bu ifadələr dildə geniş yayılıb və hamı tərəfindən çox asanlıqla başa düşülür. Ümumi idiomatik ifadələr daha çox xalqın tarixi ilə bağlı olduğu üçün onların yaradıcısı məlum olmur.

Xüsusi idiomatik ifadələr isə müxtəlif müəlliflər, şairlər və yazıçılar tərəfindən yaradılır. Ona görə də bu ifadələr zəngin üslubi imkanlara malik olur.

Dilin daxili imkanları hesabına yaranan idiomatik ifadələr arasında biz Bibliyadan götürülmüş və müasir dövrdə də geniş şəkildə istifadə olunan vahidlərin olduğunu görə bilərik. Məsələn, *an eleventh hour, the olive branch* və s.

Bibliya ilə bağlı olaraq yaranmış idiomlardan biri də "*a Benjamin's portion*" ifadəsidir. Bu idiomatik vahid ingilis dilində çox geniş şəkildə istifadə olunur və mənası daha böyük pay, yəni hissə deməkdir. Bibliyada Benjamin yəhudi mənşəli patriarxaq Yakobun ən balaca oğludur. Yakobun böyük oğlu Cozef Misirlilərə satılmışdı. Misirdə yüksək rütbəli şəxs olan Cozef bir gün qardaşları ilə rastlaşır. Qardaşları onu tanımasa da, Cozef qardaşlarını öz evinə aparır və onlara yemək verir. Burada Benjaminin payı digərlərindən 5 dəfə çox olduğu üçün "*a Benjamin's portion*" idiomu yaranır [54, s. 26].

Alınma sözlər əsasında yaranan idiomatik vahidlər. Müxtəlif dillərdən tərcümə zamanı çoxlu sayda ifadələr ingilis dilinə daxil olmuş və müəyyən müddətdən sonra milli koloritlik qazanmışdır. Məsələn:

İspan dilindən alınmış ifadələr – *extend one's hand (əl uzatmaq)*; *use one's head (baş işlətmək)*; *bad blood (qan davası)*; *at the eleventh hour (çox gec)* və s [12, s. 108].

Fransız dilindən alınmış idiomatik ifadələr – *to shrug one's shoulder (çiynini çəkmək)*; *to make face to (müqavimət göstərmək)*; *better the foot slip than the tongue (ağızdan çıxan söz artıq sənin deyil)* və s [12, s. 108].

Alman dilindən keçən ifadələr – *to lose one's head (başını itirmək)*; *to be all eyes and ears (göz-qulaq olmaq)*; *from hand to hand (əldən-ələ)*; *to look through one's fingers at something (barmaqarası baxmaq)*; *an open hand (əliaçıq olmaq)* və s [12, s. 109].

Şotland dilindən alınmış idiomatik vahidlərə baxaq: *to have a good foot on the floor (yaxşıca rəqs etmək)*; *to stroke somebody with the hair (təsəlli vermək)* və s [12, s. 109].

Amerika mənbəli idiomatik vahidlər də həmçinin ingilis dilində geniş şəkildə istifadə olunur. Nümunə: *face the music (işləri dolaşdırmaq)*; *to travel on one's face (borc içində üzmək)*; *before faces (camaat içində)*; *on the arm (havayı yerə)* və s [12, s. 105].

Çin dilindəm alınan – *to lose face (yaxşı adı itirmək)* [12, s. 109].

Rəvayətlər hesabına əmələgələn idiomatik birləşmələr. Rəvayətlər qədim folklor nümunələrindən biri olub, dilçilikdə idiomatik ifadələrin yaranmasında mühüm rol oynayır. Müasir ingilis dilində kiçik hekayələr hesabına yaranan ifadələrdən geniş şəkildə istifadə edilir. Məsələn:

Albatros around one's neck – kiminsə boynundan albatros quşu kimi sallanmaq.

Məşhur idiom Koleriçin yazdığı "Qədim dənizçilər haqqında girov" şeirindən meydana həlmişdir. Dəniz sahillərində yaşayan xeyirxah albatros quşu bir dənizçi tərəfindən öldürülür. Bu hadisə isə bütün gəmi heyətinə bəla gətirir. Dənizçini cəzalandırmaq üçün həmin quşu onun boynundan asırlar. Azərbaycan dilində də bu idiom çox geniş istifadə olunur. Mənası isə "kiminsə boynundan dəyirman daşı kimi sallanmaq deməkdir" [67].

To be born with a silver spoon in one's mouth idiomu ingilis dilində çox geniş şəkildə istifadə olunur. Bu idiomun mənası *xoşbəxt doğulmaq* deməkdir. Dildə geniş şəkildə istifadə olunan bu idiomun tarixi 18-ci əsrə gedib çıxır. O dövrdə imkanlı ailədə doğulmuş uşaqlar xaç suyuna salınarkən onlara gümüş qaşıq verilirmiş. Bu qaşıq isə var-dövlət, eləcə də xoşbəxtlik rəmzi hesab olunurmuş [12, s. 95].

Müxtəlif dövrlərdə dilçi alimlər tərəfindən idiomlar üzərində həyata keçirilmiş araşdırmalar onların yaranmasının daimi bir proses olduğunu göstərir. Nəzərdə tutulmuş hər hansısa bir fikrin obrazlı və yaxud da şişirdilmiş şəkildə ifadəsi təsadüfən də olsa, yeni bir idiomatik ifadənin meydana çıxmasına səbəb olur. Bu isə müəyyən bir dövr ərzində yeni yaranmış ifadənin geniş kütləyə hakim olması nəticəsində meydana çıxır. Deməli, bizim istifadə etdiyimiz idiomatik ifadələrin böyük bir qismi gülüş və məzhəkə səciyyəli olduğu üçün onların danışıq üslubunda istifadəsi daha məqsədəuyğundur.

Dilçilikdə idiomatik ifadələrin öyrənilməsi çətin bir prosesdir. Bu vahidlərin tərkib hissəsini təşkil edən komponentlər bizə məntiqsiz, düzgün qrammatik quruluşa malik olmayan sözlər kimi görünsə də, tərkib hissəsinin əsasını təşkil edən bu vahidləri dəyişdirmək olmaz. Bütün dil öyrənənlər həmin vahidləri lüğət tərkibində mövcud olduğu şəkildə təhlil etməlidirlər. Sahilə Mustafayeva da, həmçinin, idiomlarla bağlı

araşdırmalar aparmış və idiomlar haqqında müxtəlif fikirlər söyləmişdir. O, bu araşdırmalarını öz kitabı olan "Everyday English Idioms With Azerbaijani Equivalents in Use"da əks etdirib.

İdiomatik vahidlər özünəməxsus struktura malik olan sözlər hesab olunur [25, s. 9-10]:

- İdiomatik vahidlərin tərkib hissəsini təşkil edən komponentlər üzərində dəyişikliklər aparmaq olmaz;
- Bu vahidlərin komponenti hesab edilən sözlər həm ilkin, həm də məcazi məna kəsb edir;
- Özünəməxsus qrammatik struktura malik olan bu vahidlərin tərkibində biz sadəcə zamanı və əvəzlikləri dəyişə bilərik.

İdiomlar xalqların tarixi, adət-ənənələri, yaşayışı, dünyagörüşü ilə sıx əlaqəlidir.

Beləliklə, müxtəlif dövrlərdə idiomlar bir çox dilçilərin diqqətini cəlb etmişdir. Məşhur dilçilər idiomları tədqiq etmiş və öz fikirlərini irəli sürmüşlər. A.Kuninin, Ç.Fernandonun, J.Kartın, P.Postalın frazeologiya, idiomlar, onların semantik təsnifatı və bölgüsünə aid müxtəlif yanaşmaları mövcuddur. Bu yanaşmalardan birində göstərilib ki, idiomların semantikasında üç əsas bölgü var. Bölgüdə olan yarımqruplar belədir [35, s. 14-15]:

1. Əsl yaxud da frazeoloji idiomlar (pure idioms);
2. Leksik idiomlar (semi-idioms);
3. Hərfi idiomlar (literal idioms).

Birinci qrup idiomlara əsl və ya frazeoloji idiomlar aiddir. Bu tip idiomlar ingilis dilində *pure idioms* adlanır. Belə idiomlar məcazi mənada ifadə olunan, anlaşılması çətin və yaxud qeyri-mümkün olan, eləcə də dilin ifadə normalarına uyğun gəlməyən sözlərin birləşməsindən ibarətdir. Bu tip idiomlar yalnız kontekst daxilində konkret mövzuda işlənirlər və bu birləşmələr bütövlükdə idiomatik mənaya malik olurlar. Nümunə: "let your hair down" birləşməsinin "sərbəst olmaq, rahatlamaq" mənası ondan yaranır ki, keçmişdə cəmiyyətdə saçlarını toplayan xanımlar ailədə, eləcə də digər

yaxınların yanında rahat olmaq üçün açıq şəkildə saxlayırdılar. “Let your hair down” birləşməsi tədricən bu mənadan uzaqlaşdı və sonradan idiom kimi istifadə olundu. Başqa bir ifadəyə nəzər salaq. Məsələn: “bury/hide your head in the sand” ifadəsi “çətinlikdən qaçmaq, qorunmaq” mənasında işlədilir. Bu idiomun mənşəyinə nəzər yetirsək görərik ki, əvəllər “dəvəquşunun təhlükədə olduğu zaman başını torpaqda gizlətməsi” mənasında işlədilmiş, sonra isə zaman keçdikcə öz həqiqi mənasını itirərək “çətinlikdən qaçmaq” mənasını qazanmışdır.

İkinci qrup idiomlar isə leksik idiomlardır. Bu idiomların ingilis dilində qarşılığını bildirmək üçün *semi-idioms* terminindən istifadə edilir. Bu ifadələrin əsas cəhəti odur ki, tərkibinə daxil olan vahidlərdən bəziləri cüzi şəkildə yaxud da bütövlükdə ilkin mənasını saxlayır. Bəzi idiomların tərkibində 2 və daha çox məcazi mənalı, yəni non-literal söz və bir və ya iki hərfi mənalı sözdən istifadə edilir. Məcazi məna daşıyan vahid təkcə bu birləşmənin içərisində işləndiyi zaman müəyyən bir kontekstdən asılı olaraq obrazlılıq əlamətini əldə edir, başqa vahidlərlə ya da təklikdə istifadə olunarsa, belə halda sadəcə hərfi mənada işlənir. Bu tip vahidlərin bir araya gəlməsi yekununda obrazlılığa malik yeni bir ifadə yaranır. Qeyd etdiyim kateqoriyaya daxil olan ifadələrin əsas hissəsini təşkil edən sözlərdən bəziləri leksik mənasını dəyişmir, digərləri isə sadəcə bu birləşmənin içərisində istifadə edildikdə təzə məna qazanır. Məsələn: *“put all your eggs in one basket” – “bütün cəhdlərini bir plana sərf etmək”*. Ayrılıqda “yumurta” mənasını bildirən “egg” sözü bu birləşmənin tərkibində “cəhd” mənasını ifadə edir. Bu, onu göstərir ki, verilən ifadənin daxilində “egg” sözü yeni bir məna qazanıb.

Üçüncü qrup idiomlar hərfi idiomlardır. İngilis dilində bu tip idiomlar literal idioms adlanır. İdiomların bu növü daha az mürəkkəbliyə malikdir. Tərkibində olan vahidlər qismən həqiqi mənalarını saxlayırlar, amma ifadənin tərkibində işlənən zaman müəyyən məsələlər daxilində məcaziliyə malik olur. Misal olaraq; *on foot – ayaqüstü, on the contrary – tam əksi, a happy birthday – doğum günün mübarək, Happy Anniversary – İldönümünüz mübarək, for example and instance –misal olaraq, arm in arm – qol-qola* və s. göstərə bilərik.

P.Postal və J.Kart idiomatik vahidlərin iki qrupunu əsas götürürdü. Bunlar frazeoloji və leksik idiomlar idi. Dilçi alimlər öz diqqətlərini daha çox frazeoloji ifadələrin üzərində cəmləmişdilər [51, s. 30].

İdiomlarla bağlı tədqiqatlar üç əsas dövrə bölünür. I dövr 20-ci əsrin əvvəllərini əhatə edir. Bu dövrdə strukturalizm məktəbinin davamçıları bu ifadələri dilçilikdə olan müxtəlif qrammatik məsələlərə zidd olan universal parçalar şəklində təhlil edirlər. Bu dövrdə idiomların tədqiqi çox da geniş vüsət almamışdı. Leonard Blumfild, Noam Xomski və digər alimlər frazeologiya ilə bağlı bir çox tədqiqatlar aparsalar da, idiomlara dərindən yanaşılmamışdı. Buna baxmayaraq onların tədqiqatında məsələ ilə bağlı mühüm fikirlər ortaya atılmışdır.

İkinci mərhələ 1950-1990-cı illər arasında davam etmişdir. Bu dövrdə N.Amosova, B.Freyzer, F.Nyumeyer, A.Kunin, Ç.Hokket, U.Çeyf, U.Vaynrayx və s. kimi şəxslər xüsusilə frazeologiya üzərində tədqiqatlar aparmış və öz fikirlərini söyləmişlər. Bu araşdırmalarda əsas diqqəti idiomlarda gedən dəyişikliklərə, onların semantik və sintaktik xüsusiyyətlərinə yönləndirmişlər.

Tədqiqatın üçüncü mərhələsində isə idiomlar üzərində praqmatik cəhətdən tədqiqatlar aparılmışdır. Aparılmış tədqiqatlar idiomların mənasını daha yaxşı dərk etməyə və onları daha yaxşı öyrənməyə xidmət etmişdir [35, s. 11].

Ümumiyyətlə, bu hissədə frazeoloji vahidlərdən, onların müxtəlif dilçi alimlər tərəfindən hansı terminlər vasitəsilə adlandırılmasından, frazeologiyanın tərkibində hansı növ söz birləşmələrinin olmasından bəhs olundu. Daha sonra isə toxunduğumuz əsas məqamlardan biri də idiomatik ifadələrin tədqiq edilməsində ingilis, rus, alman, azərbaycan və s. dilçi alimlərinin rolu və bu ifadələrin müxtəlif əməlgəlmə yolları olmuşdur.

1.1 İdiomatik vahidlərin leksik və qrammatik quruluşu

Tədqiqat işinin birinci fəslində toxunacağımız digər bir məsələ idiomların leksik-qrammatik quruluşudur. İdiomların leksik və qrammatik mənasını onların məzmun və mənasının əsasını təşkil edir. Müxtəlifsistemli dillərin tədqiqatı zamanı idiomatik ifadələrin yalnızca obrazlılığı, emosionallığı deyil, həmçinin də struktur-semantik xüsusiyyətləri diqqət mərkəzində olan əsas məsələlərdən biridir.

Ümumiyyətlə, dilçilik elmində idiomatik ifadələr semantik baxımdan bütün bir vahid kimi, sintaktik baxımdan çoxlu sayda vahidlərin toplusu olaraq süzgəcdən keçirilir [35, s. 9].

İdiomlar sintaktik quruluşuna görə dəyişilməyən, mənasına görə isə tam leksik məzmuna malik tərtibat adlandırılır. Nitq prosesində müəyyən bir kontekst, yəni dil mühiti sabit söz birləşmələrinin məcazi məna, eləcə də bədiilik qazanmasında əvəzolunmaz rola malikdir.

Müxtəlifsistemli dillər hesab edilən İngilis və Azərbaycan dillərində frazeoloji birləşmələrin leksik, həmçinin də qrammatik aspektdən semantikası həmin ifadələrdə həm forma, həm də məzmun cəhətdən birlik yaradır.

İdiomatik ifadənin tərkib hissəsini təşkil edən sözlər sabit qrammatik formaya sahib olur. Bu xüsusiyyət idiomatik ifadələrin əsas səciyyəvi cəhətlərindən biridir. Sabit qrammatik formaya malik olmaq xüsusiyyəti onu göstərir ki, tərkib hissəyə daxil olan komponentlərin hər birinin qrammatik forması var və bu forma dəyişməz xüsusiyyətə malikdir.

İngilis dilində geniş şəkildə istifadə olunan idiomatik ifadələrin bir hissəsi öz quruluş və mənasına görə həm söz birləşməsi, həm də cümlə şəklində ola bilir. Buna əsasən də dilçilikdə idiomatik ifadələr qrammatik struktur cəhətdən iki əsas qrupda cəmləşdirilir. Birinci qrup idiomatik ifadələr hər hansısa bir sözün məna ekvivalenti kimi xarakterizə edilir. İkinci qrupda olan idiomatik ifadələr isə öz mənasına görə cümləyə bərabər ifadələr kimi səciyyələndirilir [14, s. 217].

İdiomatik vahidlərin məna cəhətdən bütöv, eləcə də bölünməz olması xüsusiyyəti bu ifadələri leksik vahidlərə yaxınlaşdırır. Yəni bu, o deməkdir ki, həm leksik vahidlər, həm də idiomatik ifadələr müəyyən qrammatik vəzifəyə malik olur.

İngilis dilində istifadə olunan idiomatik ifadələrin bir qismi kommunikativ funksiyaya malik olur. Bu xüsusiyyətə malik olan idiomatik ifadələr qrammatik quruluş cəhətdən cümlə formasında olur. Bu tip vahidlər isə bütöv bir məlumatı, informasiyanı ifadə etmək üçün istifadə edilir. Cümlə formasında olan idiomatik ifadələr hər hansısa bir cümlə içərisində işlənən zaman müəyyən bir sintaktik vəzifədə işlənir, həmçinin də müəyyən bir cümlə üzvü rolunda çıxış edir.

Bildiyimiz kimi, söz birləşmələri qrammatik tərkibinə görə eyni və müxtəlif nitq hissələrindən ibarət ola bilər. Dilçilikdə söz birləşməsi şəklində idiomatik ifadələr mövcud olduğunu nəzərə alsaq, həmin idiomatik ifadələr də söz birləşmələrinin həmin xüsusiyyətinə malik olur. Söz birləşmələrində olduğu kimi bu tip idiomatik ifadələrdə də qrammatik cəhətdən komponentlər əsas və asılı ola bilir. Bu da, təbii ki, komponentlərin aid olduğu nitq hissələri ilə əlaqəlidir [14, s. 221].

İngilis dilində istifadə edilən idiomların böyük bir hissəsinin komponentləri daha çox iki əsas nitq hissəsi olan isim və feillə ifadə olunur. Buna görə də həmin idiomatik ifadələr iki böyük qrupa ayrılır:

- İsmi idiomatik ifadələr – bu tip ifadələr NP, yəni *noun phrase*;
- Feili idiomatik ifadələr – isə VP, yəni *verbal phrase* adlandırılır [13, s. 34].

İsmi idiomatik ifadələr dedikdə həm morfoloji, həm də sintaktik cəhətdən ad bildirən nitq hissələrinə bərabər olan ifadələr nəzərdə tutulur. Komponentləri adlardan təşkil olunan idiomatik ifadələr müxtəlif modellər əsasında qurula bilər.

İsim + isim modeli əsasında qurulan idiomlar. Bu struktur əsasında yaradılan idiomatik ifadələrdə çox vaxt eyni sözün təkrarı halları müşahidə edilir. Bu tip idiomatik vahidlərdin komponentləri arasında köməkçi nitq hissəsi olan qoşma daha çox istifadə edilir [12, s. 48]. Məsələn:

Nuts and bolts – bir iş üçün təməl detallar; needle in a haystack – samanlıqda iynə axtarmaq; an eye for an eye – əvəz-əvəz etmək; monkey business – saxtakar davranış və s.

Eləcə də başqa misallara da baxa bilərik. Məsələn: *a man of many words – çox danışan adam; neck and crop – tələm-tələsik; a man of nothing to do – işi olmayan adam; Mum's the word – gizli iş; window shopping – ötəri baxış; his own flesh and blood – eyni gendən, qohum; from head to foot – başdan ayağa; man of his word – sözünün əri; cream of the crop - ən yaxşısı, qaymağı; a bowl of cherries – möhtəşəm; husband's tea – spirtli içki; a nest egg – gələcəyi üçün zapas pul yığmaq; pea in the sky – arzu; a bolt from the blue – gözlənilməz hadisə* və s. çoxlu nümunələr göstərmək mümkündür.

Sifət və isim modeli əsasında yaradılan idiomlar. Dildə bu quruluş əsasında yaradılan idiomatik vahidlər üstünlük təşkil edir. Dilçilikdə bu tərz ifadələr *sabit epitetlər* kimi səciyyələndirilir. Bu cür ifadələrdə məna sadəcə bir komponentin köməyi ilə deyil, bütövlükdə ifadə vasitəsilə yaranır [12, s. 48]. Bəzi idiomatik ifadələrə nəzər yetirə bilərik. Məsələn:

Smooth sailing – asan, problemsiz; an evil eye – göz-nəfis; big mouth – ağzında söz durmayan; green hand – naşı, təcrübəsiz adam; a cool head – soyuqqanlı; a bad actor – fırıldaqçı; black sheep of the family – ailədə pis hesab olunan şəxs; light hand – qabiliyyətli; top banana – önəmli adam; blue blood – zadəgan; a closed book – qapalı qutu; big headed – dikbaş; a big fish – vacib şəxs; empty nesters – uşaqları evdən kənarda böyüyən ailə; the last straw – səbrin son damlası və s.

Zərf + isim və yaxud isim + zərf modelinə əsaslanan idiomatik vahidlər. Əzizə Hacıyevanın "İngilis və Azərbaycan dillərində somatik frazeologiyanın əsasları" kitabında qeyd olunub ki, bu model əsasında qurulan idiomatik ifadələr, əsasən, hərəkətin əlamətini bildirmək üçün istifadə edilir və dilçilikdə belə vahidlər adverbial idiomatik ifadələr kimi xarakterizə edilir. Məsələn:

Down to earth – realist, şahşahadan uzaq; up to you – səndən asılıdır; up in the air – qərarsız; down the road – gələcəkdə; through thick and thin – pis gündə və yaxşı gündə; early bird – bir işi erkən görən şəxs

İdiomatik ifadələrin geniş yayılmış digər bir modeli də tərkibində say olan idiomatik ifadələrdir. Misal olaraq:

Between two fires – odla su arasında; to be in two minds – qərarsız qalmaq; two faced – iki üzlü; take five – 5 dəqiqə istirahət; the eleventh hour – son dəqiqədə; dress to the nines – dəbli və bahalı geyinmək; on one hand – bir tərəfdən

Yuxarıda vurğuladığım kimi, ingilis dilində ismi idiomatik ifadələrlə yanaşı feili idiomatik ifadələr də var. Feili idiomatik ifadələr ingilis dilində çox geniş şəkildə istifadə olunur. Bu tip idiomatik ifadələrin komponentləri feillə yanaşı digər nitq hissələri ilə də ifadə oluna bilər. Dilçilikdə istifadə olunan feili idiomatik ifadələrin böyük bir qismində feillə bərabər digər bir nitq hissəsi olan isim də işlənir. Məsələn:

To go to the dogs – it nəfsinə keçmək; shake a leg – tələsmək, məzə üçün rəqs etmək; cut a sorry figure – başqalarında özünə qarşı səhv fikir formalaşdırmaq; cry over spilt milk – xırda bir şeyi dərd eləmək; go long rest – rəhmətə getmək; to go bananas – əsəbləşmək; lend an ear – qulaq vermək, dinləmək; to go by the hook – qanuni yolla getmək, qanunla hərəkət etmək; get out of hand – kontroldan çıxmaq; make waves – problem yaratmaq; break the ice – buzları əritmək və s.

İngilis dilində geniş yayılmış feili idiomatik ifadələr öz növbəsində iki əsas qrupa bölünür [12, s. 166]:

a) Birinci qrup ifadələrin əsas komponenti bir sözdən ibarət olur və digər komponentlər isə təkrarlanır. Nümunə:

To come face to face – üz-üzə gəlmək; to see eye to eye – eyni dildən danışmaq; to hear mouth to mouth – ağızdan ağıza eşitmək; dog-eat-dog – uğur qazanmaq üçün hər yola əl atmaq; to pass from hand to hand – əldən-ələ keçmək

b) Bu qrupa daxil edilən vahidlərin başlıca tərkib hissəsi təkrarlardır, hansı ki bu təkrarların qarşılığı yoxdur. Məsələn:

To look with pooh-pooh eyes – məhəbbətlə baxmaq; to go hand to hand – əl-ələ getmək; to grin from ear to ear – gülməkdən ağzı qulağının dibində olmaq

Feili idiomatik ifadələrin təsdiq və inkarlıq bildirməsini nəzərə alaraq, həmin ifadələrin üç əsas qrupu müəyyənləşdirilib:

Birinci qrup həm təsdiqdə, həm inkarda işlənən idiomatik ifadələrdir. Məsələn:

To put his house in order (işləri yoluna qoymaq) – not to put his house in order (işləri yoluna qoya bilməmək)

To catch the last word (dediyini anlamaq) – not to catch the last word (dediyini anlamamaq)

İkinci qrup ifadələrə isə daha çox təsdiqdə işlənən idiomlar aiddir. Məsələn:

Bite your tongue – sözünü reski dayandırmaq; to speak volumes – baxışlarla danışmaq; to read between the lines – sətiraltı mənanı başa düşmək; pull yourself together – özünə gəlmək; to learn the ropes – cikini-bikini bilmək; to put his foot in – bilmədən səhv etmək və s.

Feili idiomatik ifadələrin sonuncu qrupuna çox hallarda inkarda işlənən idiomlar daxildir. Məsələn:

Not to be on speaking terms – küsmək; not to catch the last word – dediyini anlamamaq; keep an eye on – gözdən qoymamaq və s.

İngilis dilində, həmçinin, cümlə formasında olub inkarlıq bildirən idiomatik ifadələr də var. Misal olaraq:

Damn your eyes! – gözlərin çıxsın!

My heart bleeds! – ürəyim qan ağlayır!

Bu yarımfəslin sonunda isə biz idiomatik ifadələrin leksik və qrammatik quruluşu haqqında məlumat əldə etmiş olduq. Öyrəndik ki, idiomların formalaşmasında müxtəlif modellər əsas götürülür. Bu hissədə qeyd etmiş olduğum əsas məqamlardan biri də idiomların ismi və feili birləşmələr olmaqla iki böyük qrupda cəmləşdirilməsidir.

II FƏSİL

İNGİLİS DİLÇİLİYİNİN FRAZEOLOGİYASINDA İDİOMLARIN ROLU VƏ AZƏRBAYCAN DİLİNDƏ EKVİVALENTİ

Dilçiliyin sahəsi kimi frazeologiya 18-ci əsrdən etibarən dilçi alimlərin diqqət mərkəzində olmağa başladı. “Frazis” termini ilk dəfə məşhur alim Lomonosov tərəfindən istifadə olunmuşdur. Bu termin “nitq ifadəsi” mənasında işlədilirdi.

XX əsrin 70-ci illərindən etibarən frazeologiya müstəqil bir elm sahəsi kimi Amerika və Qərbi Avropada inkişaf etməyə başladı. Frazeologiyada yaranmış fikir müxtəlifliklər sadəcə bu sahənin tədqiqat obyekti ilə əlaqəli deyil, eləcə də müxtəlif dilçilər tərəfindən eyni bir dil faktının fərqli terminlərlə bir çox formada adlandırılmasında da müşahidə olunur.

Azərbaycan dilçiliyində daha çox “idiom”, “idiomatik ifadə”, “sabit söz birləşməsi”, “ibarə”, “frazeoloji vahid” və s. kimi terminlər istifadə olunur. Terminlərin istifadəsində müşahidə olunan bu tip mübahisələr İngilis dilçiliyində də rast gəlinir. İngilis dilçiliyində frazeologiyanın tədqiqat obyekti kimi “set phrase”, “set expression”, “idiom”, “phraseological unit”, “fixed word groups” və s. kimi terminlər daha çox istifadə edilir.

A.Simirnitski frazeoloji birləşmələrdən danışarkən deyir ki, idiomlardan fərqli olaraq bu birləşmələr obrazlılıq, həmçinin də ruhi müxtəliflikdən kənarda qalır. Məşhur dilçi alim frazeoloji vahidləri müxtəlif üslubi xüsusiyyətlərinə əsasən iki vacib qrupa ayırır [48, s. 3]:

1. Frazeoloji vahidlər – bunlar üslubi cəhətdən neytral ifadələr hesab edilir. Məsələn, *be in love, fall in love;*
2. İdiomlar – metafora əsaslanan bu vahidlər həm üslubi, həm də emosional cəhətdən rəngarəng hesab edilir. Məsələn, *cool as a cucumber*.

Dilçilikdə idiomalar və frazeoloji birləşmələr arasında çox da nəzərə çarpacaq dərəcədə fərq olmaması fikri R.Budaqov tərəfindən söylənilib [23, s. 34].

Dilçilik elmində idiomlar haqqında fikir söyləmiş alimlərdən biri də Ə.Dəmirçizadədir. Məşhur dilçi bəzi hallarda idiomları əsl-lüğəvi, eləcə də qrammatik mənasını tamamilə və yaxud da qismən itirərək məcaziləşən sabit söz birləşmələri, bəzən isə ümumiləşmiş vəziyyətdə ayrı-ayrı kəlmələr şəklində xarakterizə edir [10, s. 168].

R.Simpson və D.Mendis idiomatik ifadəni "sabit bir ifadədə meydana gələn və onun tərkib hissəsini təşkil edən komponentlərin mənasını təhlil etməklə ümumi mənasını proqnozlaşdırmaq qeyri-mümkün olan sözlər qrupu" kimi səciyyələndirirlər. Həmin müəlliflər eyni zamanda da bildirirlər ki, "idiom" sözü əyləncəli, cəlbedici, təsadüfi, cazibədar, rəngarəng və yaddaqalan olduğu hesab edilən dili özündə birləşdirir". O da məlumdur ki, idiomatik ifadələrin öyrədilməsi dil öyrənənlər üçün arzu olunan bilik səviyyəsinin formalaşmasında böyük rol oynayır. B.Fernando, A.Rey və N.Şmit dil öyrənməyə müvəffəq olmaq, eləcə də doğma dilə sahib olmaq üçün idiomların başa düşülməsinin vacib olduğu fikrini irəli sürür. Beləliklə, idiomatik ifadələr bizim gündəlik nitqimizdə tez-tez rast gəlindiyindən daha çox diqqət çəkməyə başlayıb [36, s. 206].

Dilçilikdə istifadə olunan idiomatik vahidlərin ifadə etdiyi məna həmin vahidin tərkib hissəsini təşkil edən sözlərin öz həqiqi mənasından bütövlüklə fərqlidir. Bu da o deməkdir ki, vahidin tərkib hissəsini təşkil edən komponentlər müstəqilliyini itirir və hamısı birlikdə bütöv bir ifadəni əmələ gətirir. Bütün bunlar onu göstərir ki, idiomatik vahidin tərkib hissəsi olan sözlər ayrılıqda müəyyən bir məna strukturuna malik olmasına baxmayaraq, həmin sözlər idiomun tərkibində özlərinin məna strukturunu dəyişir və hamısı birgə idiomatik vahidin məna strukturunun elementi olurlar [8, s. 209].

Beləliklə, idiomun komponenti olan sözlər bir-birilə üzvi sürətdə birləşir. Bu elə bir birləşmədir ki, biz həmin sözləri bir-birindən ayıra, bir sözü başqa bir sözlə əvəz edə, eləcə də həmin sözləri onların öz müstəqil mənasında istifadə edə bilmərik. Çünki

idiomatik ifadənin tərkib hissəsini təşkil edən komponentlərin ilkin forması, vəzifəsi və məzmunu dəyişən zaman həmin tərkib bütövlükdə tamam başqa bir vəzifə və mənada işlənmiş olacaq [8, s. 7].

Biz frazeoloji vahidlərdən danışarkən müxtəlif xarici dilçilərin fikirlərini tədqiq etdik. Bundan sonra belə bir nəticəyə gəldik ki, istənilən leksik vahidin şərhini vermək bir qədər çətin məsələdir. Məşhur alman dilçisi Y.Hoyzerman frazeologiyanın olduqca gənc bir elm sahəsi olduğunu və həmçinin də onun inkişafında sovet dilçiliyinin mühüm xidmətləri olduğunu qeyd edib [30, s. 6].

Frazeoloji vahidlər qərb dilçiləri tərəfindən "idiom" adlandırılıb. Ç.Hokket idiomu məzmunun əlçatan olan strukturuna görə təyin olunması çətin olan tək morfem və ya mürəkkəb formaya malik olan qrammatik forma kimi səciyyələndirir. R.Gibb isə idiomların ölmüş metaforlar əsasında yarandığını qeyd edir. Aparılan tədqiqatlar göstərir ki, dilçilikdə istifadə olunan bir çox frazeoloji vahidlər sintaktik dəyişikliklərə uğrayır. Dildə istifadə olunan hər bir frazeoloji vahidin özünəməxsus daxili strukturu vardır. Frazeoloji vahidlər başqa dillərə hərfi yox, müxtəlif ekvivalentlər vasitəsilə tərcümə edilir [58].

İlk dövrlərdə dilçiliyin frazeologiya bölməsi daha çox frazeoloji qovuşmaların, yəni idiomların tədqiqi ilə məşğul olurdu. İllər ərzində bu sahədə elmi tədqiqatların genişləndirilməsi frazeologiya anlayışının daha geniş aspektdə öyrənilməsinə səbəb oldu. A.Kuninə görə, frazeologizmlər – dəyişkən söz birləşmələrinin yaradılan struktur-semantik modelləri altında formalaşmayan mürəkkəb sematika ilə sabit söz birləşmələridir. Frazeologiyanın üç əsas aspektdə öyrənilməsi məşhur rus dilçisi A.Kunin tərəfindən irəli sürülmüşdür [21, s. 30]:

- İdiomatika;
- İdiofrazeomatika (semi-idioms);
- Frazeomatika.

A.Kunin qeyd edib ki, sinonimlər sabit ifadələrə, məsələn: *"sufferings of body-pain" (bədən ağrısının əziyyətləri)* və bir çox frazeologizmlərə aid ola bilər, məsələn: *"pigeon's milk-something that does not exist" (mövcud olmayan)* [61].

Mən belə düşünürəm ki, A.Kuninin nəzər nöqtəsi əslində daha əsaslı görünür, çünki frazeoloji vahidin bütövlüyü yalnız onun mənası ilə müqayisə edildikdə və həmçinin, vahidin istifadə olunduğu kontekst xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edilə bilər.

Ümumiyyətlə, idiom termini haqqında alimlərin ortaq fikir birliyi yoxdur. Məsələn: L.Bulaxovski idiomlardan bəhs edərkən *frazeoloji birikmə, frazeoloji vəhdət və frazeoloji birləşmə* terminlərindən istifadə edib. Digər bir dilçi alim İ.Çernışova isə idiomu *frazeoloji vəhdət* adlandırıb. İdiomların adlandırılması haqqında Vinoqradov da öz fikirlərini bildirmişdir. V.Vinoqradov idiom dedikdə yalnız *frazeoloji birikmələri* nəzərdə tutmuşdur [21, s. 36-37].

İngilis dilində idiomlar dilin böyük bir hissəsini təşkil edərək, ingilis xalqının mədəniyyətində, məişətində, ictimai və siyasi həyatında, eləcə də tarixində böyük rol oynamışdır. İngilis dilində istifadə olunan idiomlar, atalar sözləri və müxtəlif ifadələr ingilis dilinin əsas hissəsini təşkil edir. İdiomlar müxtəlif mənaları ifadə edir və idiomların öyrənilməsi çətin olsa da, əyləncəlidir. Bildiyimiz kimi, hər hansı bir söz məfhumu müstəqil mənada ifadə edir. Lakin idiomlar bu məfhumu dolayı yolla, yəni məcazi mənada ifadə edir. İdiomlar nitqə ifadəlilik, bədiilik gətirdiyi üçün üslublarda geniş şəkildə istifadə olunur. İdiomlar bədiilik məqsədilə istifadə olunduğu üçün biz idiomlara daha çox bədii üslubda rast gəlirik.

İdiomatik ifadələr bütöv bir məna ifadə edərək sözlər kimi dilin lüğət tərkibin genişlənməsində çox böyük əhəmiyyət kəsb edir. İdiomların tədqiq edilməsi, öyrənilməsi bizə onların aid olduğu xalqın, millətin tarixini, eləcə də xarakterini ətraflı şəkildə öyrənmək şansı verir. Dilçilikdə geniş şəkildə istifadə olunan bu ifadələr milli səciyyəli sintaktik vahidlər hesab olunur. Ona görə ki bu vahidlər mənsub olduqları xalqın obrazlı təfəkkürü, milli ruhu, ictimai-siyasi, eləcə də fəlsəfi fikri ilə yaxından

əlaqəlidir və bütün bunları özündə əks etdirir. Hər hansı bir xalqın həyat və yaşayışının, eləcə də tarix və etnoqrafiyasının öyrənilməsində idiomatik vahidlərin linqvistik cəhətdən tədqiq edilməsi mühüm əhəmiyyət kəsb edir.

Dil olmadan ünsiyyət etmək mümkün deyil. Dünyada mövcud olan müxtəlif millətlər arasında dil hazırkı vaxtda daha geniş yayılmış əlaqə üsulu hesab edilir. İdiomlarla zəngin olan ingilis dilinin araşdırılması və öyrənilməsi ünsiyyət prosesi zamanı yaranan müəyyən problemlərin həll edilməsində mühüm əhəmiyyət kəsb edir. Bu prosesdə yaranan çətinliklərin əsas səbəbi müxtəlif xalqlar tərəfindən fərqli-fərqli vahidlərin istifadə edilməsidir. Biz müəyyən bir dilin frazeologiyasını ətraflı şəkildə dərk edəndə bu dilin daha sürətli, həmçinin də asan formada qavranılmasında irəliləyiş əldə etmiş sayılırıq. Müxtəlif dillərin idiomatik vahidlərinin araşdırılması həmən dilləri istifadə edən xalqların tarixinin, dünyagörüşünün, adət və ənənələrinin öyrənilməsində də bizə çox yardımçı olur. Dilçilikdə geniş yayılmış idiomatik ifadələr dilçiliyin obyekti sayılır. İdiomatik ifadələr nitqə emosionallıq, ekspressivlik, ifadəlilik gətirir və müxtəlif ədəbi piryomlarda, üslubi məqamlarda istifadə olunur.

Struktur, məzmun, eləcə də ifadəliliyinə görə idiomalar rəngarənglik yaradır. Bu vahidlərin ifadə etdiyi müxtəlif mənalar onların stilistika baxımdan işləklik mümkünlüyünü son dərəcə artırır. Dilçilikdə mühüm əhəmiyyət kəsb edən bu ifadələr, demək olar ki, dilin üslubi qatlarının hamısında tətbiq olunur. Əlbəttə ki, idiomatik birləşmələrin daha əhatəli şəkildə tətbiq edildiyi sahə bədii, həmçinin də ictimai-siyasi üslubdur. Dilçilikdə mövcud olan bütün ifadələr və idiomatik vahidlər poeziya sənətinin obrazlı potensialına arxalanır və onun ifadəlilik xüsusiyyətinə söykənir. Buna görə də onlar dilin ən güclü qaynaqları hesab olunur [16, s. 6]. Sevgi, ikrah, rişxənd, atmaca, qəhqəhə, dərd, müsibət olmaqla müxtəlif məzmun rəngarəngliyinin açıq-aydın şəkildə ifadə olunduğu bu ifadələr bədii ədəbiyyatda danışıq prosesini hərarətli, yəni fəal etmək, surətlərin nitqini individual tərzdə təsvir etmək, eləcə də bədii dili xalq danışıq dilinin komponentləri vasitəsilə inkişaf etdirmək üçün istifadə edilir [22, s. 83]. Bədii üslubda obrazlı, eləcə də daha qabarıq epizodlar hazırlamaq, səmərəliliyi çoxaltmaq məqsədilə

cürbəcür ifadələrdən istifadə edilir, hansı ki həmən ifadələr epitet, metonimiya və başqa-başqa çalarlıqlara sahib olur. Bədii ədəbiyyatda yazıçılar idiomatik ifadələri obrazların mənəvi keyfiyyətlərini səciyyələndirmək, eləcə də onların daxili hiss və həyəcanlarını əks etdirmək üçün istifadə edirlər. Bu isə öz növbəsində əsərdə canlı bədii lövhələr yaratmağa, süjet xəttini daha maraqlı şəkildə qurmağa imkan yaradır. Beləliklə, biz bu nəticəyə gəlirik ki, dilin lüğət tərkibinin böyük bir hissəsini təşkil edən idiomatik birləşmələr ünsiyyət zamanı ideyaların daha effektiv, canlı, istehzalı, eləcə də ifadəli şəkildə ötürülməsində mühüm əhəmiyyət kəsb edir. İdiomatik ifadələr mənaca dərin, formasına görə isə yığcam və gözəl ifadələr hesab edilir [15, s. 285].

İdiomatik ifadələr qədim dövrlərdən bəri daima dilçilərin diqqət mərkəzində olmuşdur. Bu dil vahidləriylə bağlı bir çox tədqiqatlar aparılmış və onlar haqqında müxtəlif fikirlər söylənmişdir.

İlk növbədə, bunu qeyd etmək zəruridir ki, istifadə etdiyimiz idiom termini çoxmənalıdır. İdiomatik ifadələrin dildə istifadəsi ilə bağlı fikir söyləmiş şəxslərdən biri də qədim yunan filosofu Aniksimen olmuşdur. O qeyd edir ki, dildə istifadə olunan dəqiq ifadələr, ünsiyyəti daha canlı edən idiomatik ifadələr və xalq müdrikliyi ilə zəngin olan zərb-məsəllər nitqimizi daha emosional, ifadəli və həmçinin də yaddaqalan hala gətirir [5, s. 8].

H.Bayramov söyləyir ki, idiom termini yunan dilində “idioma” sözündən olub dildə söz birləşməsi şəklində mövcud olan ifadələrdir. Söz birləşməsi şəklində olan bu vahidlərin komponentləri hamısı birlikdə vahid bir mənanı ifadə edir və həm quruluş, həm də məna cəhətdən parçalanmır. Bayramov əlavə edərək qeyd edir ki, diksiyamızı, həmçinin, bədii əsərlərin dilini zənginləşdirən bu ifadələrin meydana gəlməsi məxsus olduğu millətin sosial yaşamı, həm də qədimiliyi ilə də sıx bağlıdır. Məhz ona görə də bu vahidlərin müəyyən hissəsi aid olduğu dildən digər dillərə hərfi tərcümə oluna bilmir [6, s. 44].

İdiomları dilçiliyin frazeologiya bölməsində öyrənilən sabit söz birləşmələrinin növü kimi səciyyələndirən S.Cəfərov bu ifadələrə belə bir tərif verir: “Bu ifadələr həqiqi

mənada istifadə olunan sözlərin qarşılığıdır və həmin sözlərin məcazi mənasını bildirən sabit söz birləşmələridir". Cəfərov idiomatik ifadələri sabit söz birləşmələrinin digər növlərindən fərqləndirmişdir. Dilçi, həmçinin, qeyd edir ki, idiomlar öz quruluş və semantika baxımdan frazeoloji ifadələrin digər növlərindən fərqli olaraq qəliz sözlərə yanaşı olan ifadələrdir. İdiomatik ifadələri frazeoloji vahidlərin başqa qruplarından fərqləndirən əsas xüsusiyyətlərindən biri də bu birləşmələrin ifadə etdiyi mənanın digərlərinə nisbətən daha konkret olmasıdır [8, s. 89].

"İdiom" termini haqında İ.Çernışeva da müxtəlif fikirlər irəli sürmüşdür. Məşhur dilçi alim idiom dedikdə frazeoloji vahid anlayışını nəzərdə tutmuşdur. Ümumilikdə isə frazeologiyanın əsas anlayışlarının daha düzgün və dərin şəkildə təsnifi sovet dilçisi V.Vinoqradov tərəfindən verilib. Frazeoloji vahid termini dilçiliyə Vinoqradov tərəfindən daxil edilib. Bu termin göstərir ki, dilin hazır vahidləri dedikdə sabit söz birləşmələri nəzərdə tutulur və bu birləşmələr nəsildən nəslə ötürülür. Belə ki, Vinoqradov frazeoloji vahidlərin təsnifatını 3 tipdə verir. Bu tiplərə *frazeoloji birikmə, frazeoloji bitişmə* və *frazeoloji birləşmələr* aiddir. Vinoqradov tərəfindən verilmiş bu təsnifatı Azərbaycan dilinin frazeologiyasını araşdıran H.Bayramov da qəbul edir [21, s. 28].

İdiom termini adı altında frazeoloji birikmələrin birləşməsi fikri də ilk dəfə akademik V.Vinoqradov tərəfindən irəli sürülmüşdür. Frazeoloji birikmələr və frazeoloji bitişmələr M.Qorodnikova tərəfindən birləşdirilmiş və vahid bir termin, yəni idiom adı altında istifadə olunmuşdur [20, s. 110].

R.Gibb idiomlar haqqında danışarkən qeyd edir ki, bu ifadələr "ölmüş metaforlar"dan yaranıb. Daha sonra idiomlardan bəhs edərkən biz, həmçinin, dilçi alim U.Vaynrayxın fikirlərinə də nəzər yetirə bilərik. Məşhur alim idiomları polisemiyanın tərkib hissəsi kimi görmüşdür. Çünki bu ifadələrdə leksik vahidin çoxmənalılığı müşahidə edilir. Dilçilikdə idiomatik vahidlərin struktur cəhətdən dəyişikliyə uğraması fikri ilə əlaqədar olaraq A.Katler və U.Çeyf də müəyyən dərəcədə tədqiqatlar aparmışlar. İdiomların komponentlərini təşkil edən vahidlərin sayı barədə P.Postalın və J.Kartın

fikirləri diqqəti cəlb edir. Məşhur alimlər idiomun hətta bir sözdən də ibarət ola biləcəyini söyləmişlər [30, s. 7].

Demək olar ki, bütün dünya dillərinin lüğət tərkibində fikrin daha obrazlı və təbii ifadəsi üçün istifadə olunan çoxlu sayda sözlər və söz birləşmələri mövcuddur. Deməli, dilçilikdə geniş şəkildə istifadə olunan həmin dil vahidləri idiom və ya idiomatik ifadə kimi səciyyələndirilir [2, s. 7].

İdiomun başqa bir dilə sətri tərcümə olunmayan ifadə olması fikri D.Uşakov tərəfindən irəli sürülüb [21, s. 38].

Dilçi alimlər V.Makmordi və C.Seydl idiom dedikdə vahidi formalaşdıran kəlmələrin təklikdə ifadə etdiyi mənasının onların ümumi mənasından tamamilə fərqlənən söz birləşməsi nəzərdə tuturlar [21, s. 38]. Həmçinin də onlar qeyd edir ki, bu ifadələrin birləşdirilərək istifadə edildiyi üsul həm qeyri-məntiqi, həm də qrammatik cəhətdən səhv hesab edilir [45, s. 2].

İ.Aniçkov idiomatik ifadələri digər söz birləşmələrinin qruplarından öz metaforik xüsusiyyətlərinə görə fərqləndirmişdir. Dilçi alim, həmçinin, idiomların bir dildən digər bir dilə sözbəsöz tərcüməsinin qeyri-mümkünlüyündən də danışmışdır.

İdiomlar haqqında tərif vermiş dilçilərdən biri də T.Quliyevdir. O qeyd edir ki, idiomun tərkib hissəsini təşkil edən sözlərin daşıdığı məna ilə həmin sözlərin ayrılıqda ifadə etdiyi məna arasında heç bir əlaqə yoxdur. O, idiomları komponentləri daşlaşmış, məcazi məna ifadə edən, üzvlərinə ayrılmayan və bir dildən başqa bir dilə tərcümə edilə bilməyən sabit söz birləşmələri kimi səciyyələndirir [23, s. 112].

Mətndə konkret bir mövzuya ifadəlilik, bədii çalarlıq vermək üçün idiomatik ifadələrdən istifadə edilir. Müxtəlifsistemli dillərin frazeologiyasının tədqiq edilməsində əsas məqsədlərdən biri də idiomların ekvivalentliyinin aşkar edilməsidir. Bəzən bizim istifadə etdiyimiz idiomun başqa bir dildə tam və ya qismən qaşılığı, yəni ekvivalenti olmaya bilər. Məsələn, ingilis dilində geniş şəkildə istifadə olunan *to have one's eye-teeth cut; neck or nothing; to show one's hand; to show the white feather; to old hand; a heart of oak; to have an old head on young shoulders* və s. kimi ifadələrin Azərbaycan

dilində tam şəkildə qarşılığı mövcud deyil. İngilis və Azərbaycan dilləri müxtəlifsistemli dillər kimi xarakterizə olunduğu üçün bu dillərin frazeloji sisteminin tədqiqində müəyyən qədər fərqli nüanslar ortaya çıxır. Beləliklə, müxtəlifsistemlilik dildə istifadə olunan vahidlərin tərkib hissəsini təşkil edən komponentlərin sayında, eləcə də onların işlənmə sırasında fərqliliklərin meydana çıxmasına səbəb olur [3, s. 11]. Dilçilik elmində müxtəlifsistemli dillərdə istifadə olunan frazeoloji vahidlərin ümumi səciyyə daşıması və müxtəlif məqamlarda struktur-semantik cəhətdən eynilik təşkil etməsi elm sahəsində "dillərarası idiomatik ekvivalentlik" kimi xarakterizə edilir [38, s. 12].

İdiomatik vahidlərin ekvivalentliyinin yaranması insanların emosional-psixi vəziyyəti, eləcə də hislərinin ümumbəşəri xarakterə malik olması ilə əlaqələndirilir. Müxtəlifsistemli dillərin frazeologiyasında ekvivalentliyin yaranmasına müxtəlif amillər təsir göstərir. Dilçi alimlər ekvivalentlik dedikdə idiomatik ifadələrin strukturunun dillərarası eyniliyi, oxşarlığı nəzərdə tuturlar. Bu zaman idiomatik vahidlərin strukturunun müxtəlif üslubi xüsusiyyətləri, eləcə də leksik dolğunluğu diqqətə alınan əsas məsələlərdəndir.

Müxtəlif dövrlər ərzində idiomatik vahidlərin ekvivalentliyi məsələsinə semantik, leksik və struktur yanaşmalar irəli sürülmüşdür. Bütün bu yanaşmalar nəticəsində ekvivalentliyin müəyyən növləri yaradılmışdır [38, s. 13]:

- Tam ekvivalent idiomlar. Bu kateqoriyaya İngilis və Azərbaycan dillərində istifadə olunan semantik, üslubi çalar, həmçinin də leksik cəhətdən eyni olan frazeoloji vahidlər aid edilir;
- Qismən və ya natamam ekvivalentlər. Burada frazeoloji vahidlər 3 əsas xüsusiyyətinə görə ekvivalent hesab olunur: 1) semantik, leksik, həmçinin də üslubi tərəfdən müəyyən dərəcədə oxşarlıq təşkil etməyən frazeoloji vahidlər; 2) leksik aspektdən oxşarlıq yaradan, ancaq semantik baxımdan oxşar olmayan; 3) semantikasına, eləcə də üslubi cəhətlərinə görə oxşarlıq təşkil edən, lakin leksik əlamətlərinə görə müəyyən qədər bir-birindən fərqlənən frazeoloji vahidlər aid edilir;

- İdiomatik analoqlar. Bəzi idiomatik ifadələrin komponentlərinin hər biri iki dildə üst-üstə düşür, bəzilərinin isə sadəcə bir komponenti hər iki dildə müşahidə olunur.

İngilis və Azərbaycan dillərində tam idiomatik vahidlərə misal olaraq *"to play with fire"* ifadəsinə nəzər yetirə bilərik. Azərbaycan dilində bu ifadənin qarşılığı *"odla oynamaq, qorxulu bir işə cəhd etmək"* deməkdir. Bu frazeoloji vahidin komponentlərinin sayı, eləcə də subyektiv qiymətləndirməsi və ekspressiv-emosional məna yükü hər iki dildə eynidir. Tam ekvivalent sayılan digər bir frazeoloji vahidə misal olaraq *"to cry one's eyes out"* ifadəsinə nəzər yetirə bilərik. Bu ifadənin Azərbaycan dilində qarşılığı "gözünün qarasını tökmək"dir.

Semantik sürüşmə ekvivalentliyin olmamasına gətirib çıxara bilər. Aparılan araşdırmalar bir daha sübut edir ki, dildə adət-ənənə, həyat tərzi, eləcə də məişət həyatı ilə əlaqəli olaraq yaranan tam və ya qismən ekvivalentləri olmayan idiomatik vahidlər kifayət qədər geniş şəkildə istifadə edilir. Məsələn, ingilis dilində yalnız mənfi mənanı ifadə edən *"an old cat"* frazeoloji vahidinin Azərbaycan dilində tam şəkildə qarşılığını bildirən hər hansısa bir söz və ya ifadə yoxdur. Bizim dilimizdə həmin ifadə ilə oxşar tərkibə malik ifadə yoxdursa da, bu birləşmədən daha geniş mənaya və fərqli işlənmə dairəsinə malik olan *"qoca qurd"* ifadəsindən istifadə edilir. İngilis dilinin özündə bir-birinə əks olan adamları adlandırmaq üçün *"Dr.Cekyll and Mr.Hyde"* ifadəsi daha çox işləkliyə malikdir.

Müxtəlifsistemli dillərdə idiomatik ifadələrin məzmun və ifadə baxımdan üst-üstə düşməsi struktur-semantik ekvivalentliyin təyin edilməsində mühüm rola malikdir. Bəzən Azərbaycan və İngilis dillərində elə idiomatik ifadələrə rast gəlirik ki, onlar zahiri cəhətdən tam ekvivalent olsalar da, işlənmə yerinə, eləcə də ifadə etdiyi mənaya görə bir-birindən fəqlənirlər. Belə hallarda ekvivalentlik bir məna əsasında olur, digər cəhətdən isə ekvivalentlik mənada deyil, tərkib hissələrinin eyni sayında, həmçinin struktur eyniliyində müşahidə edilir. Məsələn, *"to lose one's head" (başını itirmək)* Azərbaycan dilində müxtəlif mənalarda istifadə oluna bilər:

- Pis yola düşüb düzgün olmayan adamlarla münasibət yaratmaq və onların əlində istifadə aləti olmaq;
- Hər hansısa bir şeyə aludə olmaq və çətin bir vəziyyətə, bəlaya düşmək;
- Düşünüb-daşınmadan hərəkət etmək, özünü itirmək.

İngilis dilində bu ifadə sadəcə özünü, başını itirmək mənasında istifadə edilir.

Bəzi frazeoloji vahidlər komponentlərinə və semantik tutumuna görə fərqlənə bilir. Dilçilikdə istifadə olunan bu tip birləşmələr qismən ekvivalent vahidlər kimi xarakterizə olunur. Məsələn, *to catch an eye – gözünə görünmək; to curl the lip – dodağını büzmək, dodağını əymək; to have one's eye on something or someone – nədənsə və yaxud da kimdənsə gözünü çəkməmək.*

Dilçilik elmində ekvivalentlik nəzəriyyəsi ilə əlaqəli çatışmayan cəhətlərdən biri də idiomatik ifadələrlə söz arasındakı semantik fərqin qəbul edilməməsidir. Sözün məna strukturu ilə müqayisədə idiomatik vahidin məna strukturu daha mürəkkəbdir. Bu məsələ ilə bağlı məşhur alim A.Raxşteyn öz fikirlərini bildirmişdir. Dilçi alim qeyd edir ki, frazeoloji vahidin tərkib hissəsini təşkil edən hər hansısa bir komponentin müəyyən bir tematik qrupa semantik cəhətdən aid olması həmin vahidin dillərarası ekvivalentliyinə zəif təsir edir. Bu cəhət isə çox az sayda idiomatik ifadələrdə üzə çıxır [42, s. 120]. Bu səciyyəvi cəhət özünü daha çox ingilis dilində antik dövrə, eləcə də hər hansısa bir dini hadisəylə bağlı olan alınma idiomlarda göstərir. Məsələn, *all skin and bones – bir dəri, bir sümük; one's own flesh and blood – qanı və canı; Achilles' heel – Axilles dabanı, yəni birinin ən zəif nöqtəsi; an eye for an eye, a tooth for a tooth – gözə-göz, dişə-diş* və s.

İdiomatik ifadələr arasında struktur-semantik ekvivalentliyin aşağı səviyyədə olması müqayisə edilən dillərdəki leksik-semantik sistemdə bu tip komponentlərin ya çox az sayda olması, ya da tamam olmaması, həmçinin sintaktik strukturda sözlər arasındakı əlaqənin eyni dərəcədə olmaması, eləcə də komponentlərin məhsuldarlıq səviyyəsinin aşağı olması ilə əlaqəlidir. Frazeoloji ifadələrin sözlərlə ekvivalentlik təşkil etməsi nəzəriyyəsinin nümayəndələrinin irəli sürdüyü fikirlərə əsasən idiomatik

vahidlərin struktur funksiyaları bir-birinə uyğunlaşır və onlar cümlə üzvü rolunda sadəcə söz və ya frazeoloji birləşmə kimi deyil, eləcə də qeyri-frazeoloji ifadələr kimi xarakterizə edilən sabit və sərbəst söz birləşmələri kimi çıxış edir. Müəyyən hallarda dilçilik elmində bu tip ekvivalentlik məqbul sayılsa da, onların fərqli dil vahidləri olması fikri də müxtəlif nəzəriyyələrdə öz əksini tapir [41, s. 92].

Semantik nöqteyi-nəzərdən ekvivalent sayılan idiomatik vahidlər məzmununa görə eyni olub, ifadə formasına görə fərqli ola bilir. Məsələn, *to be fed up to the back teeth – boğaza qədər tox olmaq, doymaq; to be under one's thumb – daban-dabana getmək* və sairə. Qeyd etdiyim kimi, müxtəlifsistemli dillərdə frazeoloji vahidlər komponentlərin işlənməsinə, qrammatik təşkilinə, idiomatik variantlılığına, leksik tərkibinə, eləcə də strukturuna görə bir-birilə ekvivalentlik təşkil edir. Bu sadaladığım xüsusiyyətlərinə görə bənzər olan frazeoloji vahidlərin struktur təşkilində mühüm rol oynayan analogiya həmin vahidlərin obrazlılığının ümumi dil xarakteri ilə səciyyələnir.

Dilçilik elmində frazeoloji vahidlərin dillərarası ekvivalentliyini təmin edən əsas amillərdən biri də bu vahidlərin metaforik səviyyədə istifadə olunmasıdır. Hər birimizə aydındır ki, adi bir hərəkəti ifadə etmək üçün istifadə etdiyimiz hər hansısa bir frazeoloji birləşmə müəyyən bir metaforik məqamda bütövlükdə daha fərqli bir anlayışı adlandıra bilər. Müxtəlifsistemli dillər olan İngilis və Azərbaycan dillərində məcazlaşma əsasında əmələ gələn analogiyaya misal olaraq *"a bitter tongue" (iti dil və ya dili iti)* nümunəsinə nəzər yetirə bilərik. Hər hansısa bir dil vahidinin metaforlaşması həmin vahidə aid olan müəyyən əlamətlər əsasında baş verir.

Bütün məlumatları ümumiləşdirəndə belə bir nəticəyə gəlirik ki, idiomatik vahidlər xalqın mədəniyyəti, dünyagörüşü, ədəbiyyatı, həyat tərzi, tarixi və etnopsixologiyası ilə əlaqəli olur. Bu vahidlərin bir dildən başqa bir dilə transformasiyası zamanı müəyyən linqvistik və ekstralinqvistik problemlər meydana çıxır. Transformasiya zamanı yaranan bu tip çətinliklər həmin idiomatik vahidlərin digər dillərdə ekvivalentinin olmaması ilə əlaqədardır.

Ədəbi dilin zənginləşməsində, lüğət tərkibinin inkişafında, eləcə də dilin yaradıcılıq imkanlarının genişlənməsində tərcümə çox böyük rol oynayır. Tərcümənin əsasını müəyyən dil vahidləri təşkil edir. Bu dil vahidləri leksik, qrammatik, həmçinin də semantik cəhətdən özünəməxsus fərdi xüsusiyyətlərə malikdir. Bunların hər birinin tərcümə prosesində düzgün şəkildə seçilməsi, yerli yerində istifadə edilməsi, orijinal dillə yanaşı tərcümə olunan dilin də ruhunun qorunub saxlanılması tərcüməçilərdən istifadə etdiyi hər bir dilin dil səciyyələrini öyrənməsini, anlamasını tələb edir. Bildiyimiz kimi, ingilis dili beynəlxalq aləmdə inkişaf edən və daima artan nüfuza malikdir. İngilis dili daima başqa dillər və mədəniyyətlərlə qarşılıqlı əlaqədə olur. Bu əlaqələr nəticəsində ingilis dilindən müxtəlif leksik vahidlər başqa dillərə ya birbaşa, ya da başqa bir köməkçi dil vasitəsilə ötürülür. Dillərin inkişafında mühüm rol oynayan bu proses frazeoloji vahidlərdə də özünü biruzə verir. Bu məsələ ilə əlaqədar olaraq N.Abbasova müxtəlif fikirlər irəli sürmüşdür. Dilçi alim tərcümə sənətinin qloballaşma dövründə multikultural idarəetmə prosesinin elmi-tətbiqi mexanizminə çevrildiyini qeyd edir. Tərcümə olunan sahələr arasında frazeoloji ifadələrin də adını çəkir. Alim burada cümlətipli, universal struktura, eləcə də sabit predikativ tərkibə malik olan frazeoloji sistemin tərkibində öyrənilən vahidlərdən bəhs edir. Bu vahidlərə misal olaraq aforizmlərin, idiomların, ibarələrin, həmçinin də paremiyaların adını qeyd edir. Sonda dilçi alim belə nəticəyə gəlir ki, biz dil-translyator problemlərini sadəcə və sadəcə bu vahidlərin nəzəri-tipoloji xüsusiyyətlərini öyrənməklə həll edə bilərik [1, s. 4].

Fikrin düzgün, dəqiq və eləcə də emosional şəkildə çatdırılması baxımdan idiomatik vahidlərin adekvat qarşılığının istifadə olunması həmin ifadələrin mətndən düzgün şəkildə seçilməsi ilə əlaqədardır. Bu tip ifadələrin düzgün şəkildə başa düşülməməsi ötürülən fikrin təhrif olunmasına səbəb olur. İdiomatik vahidlərin uyğunlaşdırılması və müqayisəsi zamanı həmin vahidlərin leksik, qrammatik, semantik və eləcə də üslubi uyğunluq dərəcəsi aşkar edilir. Aydın məsələdir ki, hər bir dilə aid olan frazeoloji vahidin özünəməxsus semantika və strukturu var. Buna baxmayaraq biz onların müəyyən bir hissəsində bir qədər adekvatlığa şahid oluruq. Tərcümə sənətində

adekvatlıq, uyğunluq, eləcə də ekvivalentlik məsələlərinə müəyyən qədər fərqli aspektdən yanaşılmışdır. Dilçi alim A.Şveyser qeyd edir ki, ekvivalentlik dedikdə əldə olunan ilkin informasiyanın mənbə dilin daşıyıcılarına göstərmiş olduğu təsirlə bütün vacib tərəflərinə görə eyniliyi nəzərdə tutulur [43, s. 92-96].

İngilis dilinin frazeologiyası bu dilin öz üslubi rəngarəngliyi, həmçinin də məna zənginliyi ilə seçildiyini göstərir. Dilçilik elmində frazeoloji vahidlər bir çox alimlər tərəfindən milli spesifik dil vahidləri kimi xarakterizə olunur. Əgər biz frazeoloji vahidlərin bir dildən başqa bir dilə tərcümə edilməsində uğur qazanmaq istəyiriksə, bizim hər iki dilin xüsussiyyətlərini, milli özünəməxsusluğunu, yəni xalqın, millətin həyat, məişət tərzini bilməyə ehtiyacımız var. Bildiyimiz kimi, idiomatik vahidlər özlərində milli xüsusiyyətləri əks etdirir. Belə vahidlərin tərcüməsi linqvistik biliklərlə yanaşı, ekstralinqvistik biliklərə də əsaslanır. Biz ekstralinqvistik biliklər dedikdə mifologiyanı, tarixi, dini ədəbiyyatı, eləcə də klassik və müasir ədəbiyyatı nəzərdə tuturuq. Bu proses zamanı tərcümə edilən vahidin müəyyən transformativ uyğunluqlar sistemi ortaya çıxır [37, s. 110]:

- Ekvivalent uyğunluq;
- Təsviri uyğunluq;
- Adekvat uyğunluq.

İdiomatik ifadələrin tərcüməsi ilə bağlı müxtəlif nəzəriyyələr vardır. Bu sahədə fikir söyləmiş şəxslərdən biri də Q.Bayramov olmuşdur. Dilçi alim tərcümə prosesində çətinlik yaradan sahələr sırasında frazeologiyanın adını çəkir və frazeoloji vahidlərin tərcüməsində bir neçə üsulun vacib olduğunu vurğulayır:

- Ekvivalent;
- Analoq;
- Kalka;
- Təsviri;
- Kombinə;
- Antonim tərcümə üsulu.

Təbii ki, Q.Bayramov tərəfindən adı çəkilən bu üsullar tərcümə metodlarının heç də hamısını özündə əks etdirmir. Bu vahidlərin tərcümə edilməsində kontekst mühüm əhəmiyyət kəsb edir, yəni biz eyni vahidi müəyyən kontekstdə bir cür, bundan fərqli bir kontekstdə isə daha müxtəlif mənada tərcümə edə bilərik [7, s. 85-87].

İngilis dilində istifadə olunan idiomatik ifadələrin Azərbaycan dilinə tarnsformasiyası məsələsi ilə bağlı araşdırmalar aparmış alimlərdən biri də T.Quliyevdir. O, tərcümə prosesində adekvatlığa çatmaq üçün istifadə oluna biləcək müxtəlif üsul və növlərin olduğunu qeyd edir [13, s. 18-19]:

- Analoji;
- Ekvivalent;
- Antonimik;
- Kalka yolu ilə;
- Təsviri;
- Kombinasiya vasitəsilə tərcümə.

Tərcümə prosesində istifadə edilən üsullardan birincisi *analoji tərcümə* üsuludur. Mühüm əhəmiyyətə malik olan bu tərcümə üsulunda idiomatik ifadələrin mənası hədəf dildə ifadə olunur, lakin həmin ifadələrin bədiiliyi müəyyən qədər fərqli şəkildə əks etdirilir. Nümunə kimi bəzi ifadələrə diqqət yetirək: *have a good time – yaxşı vaxt keçirmək; Queen Ann is dead – dediyin xəbər köhnəlib; to have a frog in someone's throat – həyəcandan kiminsə boğazının tutulması; birds of fine feather flock together – su axar, çuxurunu tapar.*

İngilis dilində istifadə edilən idiomatik ifadələrin mənasını, eləcə də onların bədiiliyini Azərbaycan dilində adekvat şəkildə əks etdirən tərcümə üsulu *ekvivalent tərcümə* kimi xarakterizə olunur. Misal olaraq bir neçə nümunəyə nəzər yetirə bilərik: *as bright as day – gün kimi aydın; the golden age – qızıl əsri; the day of doom – məhşər günü; to be as cold as ice – buz kimi soyuq olmaq; to be as hungry as wolf – qurd kimi ac olmaq; the voice of conscience – vicdanın səsi; to be as cunning as fox – tülkü kimi bic olmaq* və sairə.

Tərcümə prosesində istifadə edilən üçüncü üsul *antonimik tərcümə* üsuludur. Bu tərcümə üsulu mənbə dildəki idiomatik vahidin adekvat tərcüməsinə əsaslanır. Bu üsuldan istifadə zamanı mənbə dildən hədəf dilə tərcümədə təsdiq və inkar konstrulsiyalar mühüm əhəmiyyət kəsb edir və onlar bir-birini əvəz edir. Məsələn, *to keep one's head – başını itirməmək; to go to the limit – həddini bilməmək; let sleeping dogs lie – yatmışları oyatma; misfortune never comes alone – bəla gələndə xaralla gəlir* və s. müxtəlif nümunələri nəzərdən keçirə bilərik.

Kalka tərcüməsi elm aləmində *hərfi tərcümə* kimi də tanınır. Bu tərcümə üsulundan istifadə etməklə dilçilər mənbə dildə ekvivalenti olmayan idiomatik vahidlərin milli-etnik keyfiyyətlərini saxlamaqla həmin ifadələrin maksimal tərcüməsini verə bilirlər. Ümumiyyətlə, kalka tərcümə üsulundan orijinal frazeoloji vahidin əvəzində işlədilən obraz kifayət qədər başa düşülən olduqda, eləcə də ekvivalenti və hədəf dildə analoqu olmadıqda istifadə edilir. Biz idiomatik ifadələrin bədiiliyini kalka və ya hərfi tərcümə üsulu vasitəsilə ötürə bilmərik. Kalka tərcümə üsulunda diqqət göstərilən əsas məqamlardan biri də frazeoloji vahidlərin struktur sxemlərinin saxlanılması, həmçinin də onların semantikasının hədəf dildə ifadə etdirilməsidir. İdiomatik ifadələrin mənbə dildən hədəf dilə transformasiyası prosesində müəyyən qədər çətinliklər olarsa, bu zaman biz kalka və ya hərfi tərcümədən istifadə edirik.

Əgər idiomatik ifadələrin hədəf dildə tərcüməsi mümkün deyilsə, bu zaman *təsviri tərcümə* üsulundan istifadə edilir. Bu üsul idiomatik vahidləri hədəf dilə sərbəst söz birləşmələri vasitəsilə transformasiya edir. Bir sözlə, təsviri tərcümə üsulundan istifadə etdikdə mənbə dildəki idiomlarda müəyyən qədər məna təhrifi müşahidə edilir. Bu tip ifadələrdən bəzilərinə nəzər yetirək: *to be in pink – gümrah olmaq; to look blue – hüznlü görünmək; to drink till all's blue – ən son damlasına qədər içmək.*

Kombinasiya üsulu ilə tərcümə müştərək tərcümə kimi də səciyyələndirilir. Mənbə dildə olan idiomatik vahidin hədəf dilə tərcüməsi zamanı onun mənası bütünlüklə ifadə oluna bilmirsə, ilk öncə həmin vahid kalka üsulu ilə, daha sonra isə

təsviri tərcümə vasitəsilə verilir və ən sonda frazeoloji vahidin analoji tərcüməsi ilə müqayisə olunur.

S.Cəfərov da öz nəzəriyyələrində frazeoloji vahidlərin tərcümə edilməsi məsələsi ilə əlaqəli müxtəlif fikirlər irəli sürmüşdür. Dilçi alim qeyd edir ki, bu vahidlərin bir dildən başqa bir dilə tərcüməsi zamanı əksər hallarda gülünc və mənası olmayan birləşmələr yaranır [9, s. 76].

İdiomatik vahidlərdə yeni mənaların yaranmasında ekstralinqvistik təsirlər mühüm rola malikdir. Frazeoloji vahidlərin yeni məna qazanmasına səbəb olan bu faktorlar müəyyən bir dilin tarixi inkişaf prosesində yaranır və əhəmiyyət kəsb edir. Biz idiomatik vahidlərin tərcüməsi prosesində çoxmənalılıq problemi ilə qarşılaşırıq. Bu eyni bir vahidin kontekstdən asılı olaraq müxtəlif mənaları ifadə etməsi nəticəsində yaranan bir amildir. Mənbə dildən hədəf dilə tərcümə prosesinə nail olmaqda dilin frazeoloji sisteminin inkişafının mühüm əhəmiyyəti vardır. Bu o deməkdir ki, frazeoloji sistem nə qədər çox inkişaf edərsə, idiomatik vahidlərin transformasiyası prosesi bir o qədər asan həyata keçirilə bilər.

Transformasiya prosesi zamanı yaranan çətinliklərdən bəziləri də idiomatik ifadələrin semantikası ilə bağlıdır. Məşhur rus dilçisi A.Kunin bu məsələ ilə bağlı olaraq 5 əsas aspektin adını çəkir [40, s. 67]:

1. Frazeoloji vahidlərin milli koloriti;
2. Frazeoloji vahidlərin məcazi mənası;
3. Frazeoloji vahidlərin emosional çaları;
4. Frazeoloji vahidlərin hərfi mənası;
5. Frazeoloji vahidlərin üslubi məqamları.

Qeyd olunan aspektlərin hər biri reseptor dildə uyğun olan ekvivalentlərin seçilməsində iştirak edir.

İdiomatik ifadələrin tərcümə prosesi ilə bağlı aparılan tədqiqatlardan belə nəticəyə gəlirik ki, bəzən həmin ifadələrin tərcüməsi lüğəvi tərcüməyə uyğun gəlmir və tərcümə prosesi vahidin öz müstəqil leksik mənası əsasında həyata keçirilə bilər. Bizim diqqət

etməli olduğumuz əsas məqamlardan biri kokretləşdirmə, ümumiləşdirmə, eləcə də metonimik və antonimik tərcümə üsullarıdır.

Deməli, burada öyrənmiş olduğumuz əsas məsələlər ingilis dilçiliyinin frazeologiya bölməsində idiomların rolu və onların bizim dilimizdəki roludur. İdiomatik birləşmələrin bir dildən başqa bir dilə tərcüməsi zamanı yaranan ekvivalentlik məsələləri də maraqlı məqamlardan biridir. Bununla bağlı olaraq ikinci fəsildə tərcümənin müxtəlif üsullarından, eləcə də translyator dillə uyğunluq problemindən bəhs edilmişdir.

2.1. İngilis-Azərbaycan dillərində idiomların ideya məzmun və semantik xüsusiyyətləri. İdiomların təsnifatı

İdiomatik vahidlərin semantik-struktur tədqiqi müasir dilçilik elminin məşğul olduğu vacib və aktual məsələlərdən hesab edilir. Öncədən bildiyimiz kimi, leksik tərkibi və tərkib hissələri arasındakı sintaktik əlaqələr sabit qalan idiomatik birləşmələrin mənası onun komponentlərinin mənası əsasında yox, bütövlükdə müəyyən edilir. Beləlikə, idiomatik vahidlərin tərkib hissəsini təşkil edən sözlər bir-birilə möhkəm şəkildə əlaqələndiyi üçün biz bu ifadələri ayrılıqda öyrənə bilmirik. Nəticə etibarilə, bu vahidlərin mənasını sadəcə və sadəcə forma və məzmun vəhdəti baxımdan öyrənmək mümkündür.

İdiomatik ifadələrin semantik xüsusiyyətləri barədə fikir söyləmiş dilçilərdən biri T.Quliyevdir. Dilçi alim idiomatik birləşmələrin semantikasının həmin birləşmənin tərkib hissəsini təşkil edən komponentlərin semantikası ilə müəyyən dərəcədə əlaqəli olduğunu qeyd edir. O, həmçinin, bu əlaqənin səthi deyil, daha dərin olduğunu düşünür. İdiomatik bütövün komponentləri bir-birilə müəyyən şəkildə bağlanır, hansı ki bu bağlılıq birləşmənin tərkib hissələrinin sabit bir mövqedə dayanmasında mühüm rol oynayır. Bu isə öz növbəsində komponentlər arasındakı bağlılığın nə dərəcədə möhkəm olduğunun sübutudur [19, s. 62].

Müasir ingilis dilində idiomatik vahidlərin semantik xüsusiyyətləri daha çox onların müxtəlif mənalarla bağlılığına əsaslanır. Bu da öz növbəsində sinonimlik, omonimlik, eləcə də çoxmənalılıq kimi bir çox semantik hadisələrin meydana çıxması ilə nəticələnir. Dilçi alimlər semantik-struktur baxımdan idiomatik birləşmələrin müxtəlif qruplarını müəyyənləşdirmişlər [13, s. 119]:

1. Çoxmənalı idiomatik birləşmələr;
2. Omonim idiomatik birləşmələr;
3. Sinonim idiomatik birləşmələr;
4. Antonim idiomatik birləşmələr.

Elmi araşdırmalar göstərir ki, üslubi çalarlığına görə bu idiomatik birləşmələr arasında müəyyən qədər fərqlər vardır. Belə ki, çoxmənalı və omonim idiomatik birləşmələrlə müqayisədə sinonim və antonim idiomatik birləşmələr üslubi çalarlıq cəhətdən daha zəngin və rəngarəng hesab edilir [15, s. 287].

Dilçilikdə idiomatik vahidlərin semantik xüsusiyyətləri, əsasən, onların sinonimlik imkanları ilə əlaqələndirilir. Demək olar ki, bütün dillərdə müəyyən bir anlayışı ifadə etmək üçün bir neçə idiomatik birləşmədən istifadə edilir. İngilis dilində də belə hallar tez-tez müşahidə edilir. Leksik mənasına görə oxşar hesab edilən bu ifadələr dilçilikdə sinonim idiomatik vahidlər kimi səciyyələndirilir.

Sinonim idiomatik birləşmələrə alimlər tərəfindən belə bir tərif verilmişdir ki, öz üslubi boyasına, həmçinin də leksik tərkibinə görə bir-birindən fərqlənən, lakin mənasına görə bir-birinə yaxın mənalı ifadələrdir [28, s. 119]. Bir neçə nümunəyə nəzər yetirək: *tire out – wear out (bezdirmək); go long rest – kick the bucket (dünyasını dəyişmək); flying visit – drop in on (salam-sağol ziyarət etmək)* və sairə.

Dilçilik elmində idiomatik sinonim anlayışı ilə yanaşı leksik sinonim termini də fərqləndirilir. Bu anlayışlar bir çox xüsusiyyətlərinə görə bir-birlərinə oxşar olmasına baxmayaraq, onlar arasında müəyyən dərəcədə fərqlər də mövcuddur. Onlar arasında olan başlıca oxşarlıq odur ki, leksik sinonimlər kimi idiomatik sinonimlər də nitqdə təkrarçılığın qarşısını almağa, həmçinin də fikrin dərinliklərini ifadə etməyə yardımçı

olur. Leksik sinonimlər və idiomatik sinonimlər arasındakı əsas fərq ondan ibarətdir ki, leksik sinonimlərdən fərqli olaraq idiomatik sinonimlərdə hər hansısa bir anlayışı ifadə etmək üçün bütöv birləşmədən istifadə edilir. Əşya və hadisələrin əlamətləri leksik sinonimlər vasitəsilə izah olunur, lakin idiomatik sinonimlərdə onların münasibətləri ön plana çəkilir [14, s. 233].

İdiomatik sinonimlərlə leksik sinonimlər arasında əsas fərq onların obrazlılığı ilə əlaqəlidir. Belə ki, leksik sinonimlərə nisbətən idiomatik sinonimlərdə obrazlılıq özünü daha çox biruzə verir. Bunun əsas səbəbi isə idiomatik sinonimlərin tərkib hissələrinin məcazi məna kəsb etməsi ilə əlaqəlidir. Obrazlılıq üçün əsas əlamətlərdən biri də məcazilikdir.

Sinonim idiomatik ifadələr müxtəlif obrazlara malik olur. Elə bu səbəbə görə də sinonim idiomatik vahidlər dilin zənginləşməsinə, mənanın qüvvətləndirilməsinə, eləcə də dildə emosionallığın yaradılmasına xidmət edir [12, s. 157]. Bir neçə nümunəyə diqqət yetirək: *bend ower backwards – strain every nerve – do all one can do – give one's best (əlindən gələni etmək); for peanuts – dirt cheap (çox ucuz, ölü qiymətinə)*

Bu nümunələrə fikir versək, görərik ki, komponentləri bir-birindən fərqli olan müxtəlif idiomatik ifadələr eyni mənanı ifadə edir. Bu birləşmələr sinonim idiomatik vahidlər adlanır. Məhz ingilis dili də bu tip ifadələrlə zəngin bir dil olduğu üçün sinonim cərgələrinin yaranması qaçınılmazdır. Dilçilik elmində sinonim cərgələr dedikdə ümumi bir mənası olan leksik vahidlər kompleksi nəzərdə tutulur [28, s. 173].

İdiomatik sinonimlik ingilis dilində idiomatik ifadələrlə yanaşı, həmçinin, ifadələr və sözlər arasında da tez-tez müşahidə olunur. Bu o deməkdir ki, biz eyni bir anlayışı ifadə etmək üçün ifadələrdən əlavə müəyyən sözlərdən də istifadə edə bilərik. Söz və ya ifadə ilə verilməsi arasında əsas fərq mənanın daha emosional çatdırılmasındadır. İfadə ilə ötürülən məna daha emosional olur. Misal olaraq: *to make up one's mind – to decide (qərara gəlmək); to put somebody's mind at ease – to set somebody's heart at ease – to rest (sakitləşdirmək); to make an offer – to make a suggestion – to suggest (təklif etmək)* və sairə [12, s. 162].

Bədii dilin üslub və dil zənginliyinin təmin edilməsində idiomatik sinonimlər əvəzsiz rol oynayır. Qədim zamanlardan müasir dövrümüzə qədər sinonim idiomatik ifadələr və onların müxtəlif variantları həm klassiklər, həm də müasir yazıçılar tərəfindən məharətlə istifadə olunmuşdur. Yazıçılar bu ifadələrdən istifadə etməklə eyni bir keyfiyyəti, hadisəni, eləcə də vəziyyəti müxtəlif formalarda verə bilir. Qeyd etdiyimiz kimi, bu ifadələr dilin gözəlləşməsinə, onun təsir qüvvəsinin artmasına, həmçinin də fikrin oxucuya daha canlı çatdırılmasına xidmət edir [12, s. 162].

Sinonim idiomatik ifadələr ədəbi bədii dillə yanaşı xalq danışıq dilində də geniş şəkildə istifadə edilir. Məsələn, *hər tərəfdə* sözünü ingilis dilində iki formada (*on all hands* və *of all hands*) verə bilərik. Bunlardan birincisi, yəni *on all hands* ədəbi bədii dildə, ikincisi, *of all hands*, adi xalq danışıq dilində istifadə olunur [12, s. 163].

Sinonim idiomatik birləşmələr arasında müəyyən qədər fərqli nüanslar və məna incəlikləri müşahidə edilə bilir. Bu sinonim idiomatik vahidlərin hər zaman bir-biri ilə üslub və məna baxımdan eynilik təşkil etməməsi ilə bağlıdır.

Dilçilik elmində antonimlik hadisəsi də idiomatik vahidlərin əsas semantik xüsusiyyətlərindən biri kimi hesab edilir. Antonim idiomatik birləşmələr dedikdə eyni leksik əhatədə birləşən, müəyyən sintaktik modeldə istifadə olunan, bir distribusiyaya malik olan və əks mənanı ifadə edən idiomatik vahidlər nəzərdə tutulur [14, s. 234]. Əks mənanı bildirən idiomatik ifadələrə misal olaraq bəzi birləşmələrə nəzər yetirək: *a heart of gold (qızıl ürək) – a heart of stone (daş ürək); to be on good terms (yaxşı əhvalda olmaq) – to be in bad terms (pis əhvalda olmaq); to be in bad hands (pis əllərdə olmaq) – to be in good hands (yaxşı əllərdə olmaq); fair play (təmiz iş) – foul play (təmiz olmayan iş)* və sairə.

Antonim idiomatik birləşmələrin ingilis dilində vacib bir qrupu vardır, hansı ki bu qrupda olan ifadələrin bir və yaxud da bir neçə sözünün əvəzlənməsi müşahidə edilir. *To give somebody the left hand (kiməsə səmimi münasibət göstərməmək) – to give somebody the glad hand (səmimi şəkildə görüşmək); to have a wolf by the ear (çətin*

vəziyyətdə olmaq) – to get out of the wood (təhlükədən uzaq olmaq) və s. antonim idiomatik birləşmələrə nümunə ola bilər [12, s. 170].

Dilçilikdə ifadə etdiyi mənalara görə antonim idiomatik birləşmələrin müxtəlif qrupları müəyyən edilmişdir [12, s. 171].

1. Hərəkət bildirən birləşmələr

To work with a heavy hand // to pull (one's) weight // to put heart and soul (canı-könüldən çalışmaq) – to work with the left hand // to put the cart before the horse (tərsinə və başdangetdi iş görmək); to put something on foot (yerinə yetirmək) – to put something off on foot (işi dayandırmaq)

2. Hərəkətin tərzini bildirən vahidlər

To lose one's head (çaşıb qalmaq) – to have a level head // to hold your horses (təmkinli və sakit olmaq); to sit on one's hand (kiminsə əlinin üstündə olmaq) – to sweat one's gut out (öz zəhməti ilə çalışmaq)

3. Kəmiyyət bildirən idiomatik vahidlər

To be born with a silver spoon in one's mouth // to be rolling in dough (varlı ailədə doğulmaq) – to live from hand to mouth // to die in harness (kasıb həyat sürmək)

4. Əhval-ruhiyyə bildirən ifadələr

To be in the pink (yaxşı və sağlam olmaq) – to go under weather // to be in a stew (pis hiss etmək)

5. Məsafə mənasını bildirən idiomatik iadələr

A stone's throw (çox yaxın) – out of touch (uzaq); cheek by jowl (yaxınlıqda) – to put one's hand no further than your sleeve will reach (uzaqda)

Antonim idiomatik ifadələrdən danışarkən bizim toxunmalı olduğumuz əsas məqamlardan biri də inkarlıq məsələsidir. Belə ki, tərkibində *not və no* inkar bildirən sözlər işlənən idiomatik vahidlər antonim hesab edilmir. Çünki bu sözlər antonimlik deyil, məhz inkarlıq yaratmaq üçün istifadə edilir. Məsələn, biz *to cry over spilt milk* ifadəsini *not to cry over spilt milk* kimi istifadə etdikdə antonimlik yox, sadəcə inkarlıq yaratmış oluruq [12, s. 175].

Bədii ədəbiyyatda geniş şəkildə istifadə olunan antonim idiomatik vahidlər daha çox bədii ifadə vasitəsi rolunda çıxış edir. Mənanın daha aydın və bədii şəkildə ötürülməsində bu ifadələrin qarşılaşdırılması əsas rol oynayır. Antonim birləşmələr bədii dilin ifadə təsirinin artırılmasında istifadə olunan əsas vasitələrdən biridir [22, s. 378].

Dilçilikdə idiomatik birləşmələrin antonimliyi müxtəlif şəkildə nəzərə çarpır. Komponentlərinin fərqli cəhətdən antonimlik təşkil etməsindən asılı olaraq antonim idiomatik vahidlərin 3 əsas qrupu fərqləndirilir [15, s. 235]:

- Komponentlərindən hər ikisi antonim olan birləşmələr;
- Birinci komponentləri antonim olub, ikinci tərəfləri eyni olan birləşmələr;
- İkinci komponentləri antonim olub, birinci tərəfləri eyni olan ifadələr.

Aparılan tədqiqatlar göstərir ki, dilin lüğət tərkibinin genişlənməsində və onun ifadə imkanlarının artmasında çoxmənalılığın xüsusi əhəmiyyəti vardır. Dilçilikdə mühüm əhəmiyyət kəsb edən çoxmənalılıq sözlərlə yanaşı idiomatik vahidlərə də aid edilir. İdiomatik ifadələrin çoxmənalılığı dedikdə onların bir deyil, bir neçə mənanı ifadə etməsidir. Yəni bu onu bildirir ki, sözlər kimi idiomatik vahidlər də həm monosemantik, yəni təkmənalı, həm də polisemantik, yəni çoxmənalı ola bilir. Təkmənalı ifadələrdən fərqli olaraq çoxmənalı idiomatik birləşmələrin 2 və ya daha çox mənası olur [14, s. 229].

Dilçilik elmində idiomatik vahidlərin çoxmənalılığı ilə bağlı müəyyən qədər ziddiyyətli nəzəriyyələr mövcuddur. Belə ki, bəzi dilçi alimlər, A.Yufimov, Q.Kramarenko, eləcə də N.Roqova, idiomatik vahidlərdə çoxmənalılıq hadisəsinin olduğunu qəbul etmirlər. Bir qrup dilçilər isə çoxmənalılığı idiomatik birləşmələrin əsas xüsusiyyətlərindən biri kimi qiymətləndirirlər [12, s. 266].

Go to one's head ifadəsi istifadə olunduğu kontekstdən asılı olaraq *bütün diqqətini bir yerə toplamaq və başı gicəllənmək* mənalarını ifadə edə bilir [12, s. 182]:

1. Unfortunately she can't spare me any time. She is very busy reading an article and it has gone her head – Bədbəxtlikdən, o, mənə vaxt ayıra bilmir. O, məqalə oxumaqla məşğuldur və bütün diqqətini ona yönəldib.

2. All these gifts went to John’s head – Bütün bu hədiyyələr Conun başını gicəlləndirdi.

Çoxmənalılıq hadisəsinin yaranması və inkişafında yazıçıların əhəmiyyəti çox böyükdür. Onlar müəyyən bir ifadəni hər hansısa bir mətndən çıxarıb başqa yeni mətnə salmaqla onun mənasını genişləndirmişlər.

Dilçilikdə idiomatik birləşmələrin çoxmənalılığı ilə yanaşı omonimliyi də diqqəti cəlb edən məsələlərdən biridir. Bəzən alimlər çoxmənalılıq və omonimlik arasındakı sərhəddi müəyyənləşdirə bilmirlər. İdiomatik vahidlərin omonimlik xüsusiyyəti barədə fikir söyləyən alimlərdən biri məşhur rus dilçisi V.Vinoqradov olmuşdur. Dilçi alim frazeoloji birləşmələrin və ya qrupların, əsasən, omonimlik hadisəsindən məhrum olduğunu vurğulayır və bu birləşmələrin sinonim cərgəsinə aid olmasından danışır. Alimin fikri odur ki, hər hansısa bir birləşmənin omonimlik xüsusiyyətinə malik olması üçün ilk növbədə həmin birləşmənin tərkib hissəsini təşkil edən sözlər omonimlik xüsusiyyətinə malik olmalıdır [22, s. 373].

İdiomatik vahidlərin omonimliyi qədim tarixi dövrlərdən bəri dilçi alimlərin diqqətini cəlb edən bir məsələ olmuşdur. Dilçilər omonim birləşmələrin yaranmasında bir sıra halların rol oynadığını qeyd edirlər [14, s. 232].:

- Sərbəst birləşmələrin sabitləşməsi prosesinin nəticəsi olaraq;
- Kalka üsulu vasitəsilə digər dillərdən idiomatik birləşmələrin götürülməsinin nəticəsində;
- İki dil vahidinin bütünlüklə və yaxud da qismən omonimləşməsi nəticəsində;
- Sabit söz birləşmələrinin yenidən məcazlaşması prosesinin nəticəsi olaraq;
- Bəzi çoxmənalı idiomatik birləşmələrdə öncəki mənadan bütünlüklə uzaqlaşma nəticəsində

İdiomların təsnifatı. Hər hansısa bir dilin zənginliyi onun frazeoloji vahidlərlə nə qədər zəngin olması ilə əlaqəlidir. İngilis dilinin frazeologiyası ilə əlaqədar aparılan araşdırmalardan belə nəticəyə gəlinmişdir ki, frazeologiya ingilis və amerikan dilçiliyində çox geniş şəkildə tədqiq edilməmişdir. Fərqli dövrlərdə dilçiliyin

frazeologiya sahəsi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Bəzi dilçilər frazeologiyanın tədqiqat obyekti kimi idiomatik vahidləri diqqət mərkəzinə çəkirlər.

İdiomatik birləşmələr ingilis dilinin lüğət tərkibində mühüm əhəmiyyət kəsb edir və bu birləşmələr öz tərkibinə, mənasına, eləcə də mənşəyinə görə təsnif edilir. Dilçilikdə idiomatik ifadələrin mənşəyinə görə 2 əsas növü, yəni *xalis* və *alınma* idiomlar fərqləndirilir [14, s. 226].

Xalis idiomatik birləşmələr dilçilikdə milli səciyyə daşıyaraq mühüm rol oynayır. İngilis dilinin inkişafında mühüm rol oynayan idiomatik vahidlər qədim tarixə malikdir. Bu ifadələrin əksəriyyətinin müəllifi məlum deyil, eləcə də xalq tərəfindən yaradılmışdır [39, s. 251]. Xalis idiomatik birləşmələrin tərkib hissəsini təşkil edən sözlər əsl ingilis sözləri hesab edilir. İdiomatik ifadələrin bu qrupu, əsasən, qədim zamnalardan müasir dövrümüzə dildən-dilə, nəsildən-nəslə keçərək gəlib çatmışdır. Bu tip birləşmələr daha çox hər hansısa bir xalqın dünyagörüşü, əxlaqi, mənəvi dəyərləri, adət-ənənəsi, eləcə də həyat tərzi ilə bağlı olaraq yaranmışdır.

İngilis dilində istifadə olunan idiomatik ifadələrin müəyyən bir qismi alimlərin, yazıçıların, həmçinin də kralların adı ilə əlaqədardır. Bu əlamətinə görə idiomatik vahidlər 3 əsas qrupa bölünmüşdür [39, s. 253]:

1. Komponentləri ad və soyadlardan ibarət olan birləşmələr – *A Sherlock Holmes; A Sally Lunn*
2. Komponentləri soyadlardan ibarət olan vahidlər – *according to Cocker*;
3. Komponentləri adlardan ibarət olan ifadələr – *Queen Ann is dead; King Charles's head*.

İngilis dilində astrologiya ilə bağlı olan çoxlu sayda idiomatik ifadələrdən istifadə edilir. Məsələn, *believe in one's star; the stars were against it; bless one's stars* və sairə.

İngilis dili alınma idiomatik birləşmələrlə zəngin bir dildir. Bu idiomatik birləşmələrin komponentlərindən ya biri, ya da hamısı başqa dillərə məxsus olur. Başqa bir dildən tərcümə vasitəsilə ingilis dilinə daxil olan idiomatik birləşmələr də, həmçinin, alınma ifadələr kimi səciyyələndirilir.

İdiomatik vahidlərin qruplaşdırılmasında nəzərə alınan əsas məqamlardan biri də həmin ifadələrin tərkibidir. Tərkibinə görə idiomatik ifadələrin 3 əsas qrupu müəyyənləşdirilmişdir [12, s. 43]:

1. İki komponentdən ibarət olan birləşmələr;

On foot (piyada); by heart (əzbərdən); by eye (gözəyarı); feed somebody (kiməsə məlumat vermək); make waves (problem yaratmaq); to show off (gözə kül üfürmək)

2. 3 tərkib hissədən ibarət olan idiomatik vahidlər;

Wear the trousers (sözü keçmək); man of few words (az danışan adam); get out of hand (kontroldan çıxmaq); bite your tongue (sözünü qəfil dayandırmaq)

3. Üçdən çox komponenti olan idiomatik birləşmələr;

Not to catch the last word (dediyini anlamamaq); to have an axe to grind (çıxarı olmaq); to put his house in order (işlərini yoluna qoymaq); his own flesh and blood (eyni gendən, yaxın qohum); hit the nail on the head (tam hədəfə vurmaq) və sairə.

Dilçilik elmində tez-tez rast gəldiyimiz əsas anlayışlardan biri də terminlərdir. Terminlər insan fəaliyyətinin müxtəlif sahələri ilə bağlı olan sözlərdir. Müasir ingilis dilində bu sözlərdən bəziləri yeni mənalar qazanaraq idiomatik vahidlərin tərkibində istifadə edilir. Azərbaycan və İngilis dilində istifadə edilən idiomların müqayisəli şəkildə araşdırılması bu vahidlərin müxtəlif tematik qruplarda birləşmə imkanlarını ortaya çıxarır. Tematik cəhətlərə əsasən aparılan tədqiqatlar bu ifadələrin komponentləri arasındakı daxili əlaqələri, onların semantik xüsusiyyətlərini, daha sonra isə həmin vahidlərin əmələgəlmə mənbələrini tapmağa kömək edir. Beləliklə, iki və daha artıq vahidin birləşməsi nəticəsində əmələ gələn idiomlar müxtəlif mənaları ifadə edir. Bəzi misallara baxaq [21, s. 84-90]:

- Komponentlərindən biri hərbi ilə əlaqəli sözlərdən ibarət olan birləşmələr – *quarrel with bread and butter (kiminsə yaşayışı ilə bağlı)*; *to let loose the dogs of war (müharibəni başlamaq)*; *bite the bullet (çətinlik qarşısında cəsarətli olmaq)*; *to sweathe the sword (müharibəni dayandırmaq)*; *to fight shy of smb (kimdənsə uzaq olmaq)*;

- Tərkibində bədən üzvləri çıxış edən və insanın hərəkəti, fəaliyyəti, eləcə də vəziyyəti ilə bağlı olan idiomlar – *to keep your head above water (çətin də olsa, dolanmaq)*; *to lend a hand (kömək əli uzatmaq)*; *to bend your ears (uzun müddət darıxdırıcı bir şey haqqında danışmaq)*;
- Heyvanlara məxsus olan əlamətləri, keyfiyyətləri, halları bildirən vahidlər – *a bird's eye view (quş baxışı)*; *let sleeping dogs lie (arı yuvasına çöp uzatma)*; *cry wolf too often (yalançının evi yandı)*; *brass monkey weather (son dərəcə soyuq hava)*;
- Daxilində qidaya, yeməyə məxsus olan sözlərin işləndiyi idiomatik ifadələr – *to eat humble pie (təhqirə dözmək)*; *carrot and sticks (kimisə bir şey etməyə məcbur etmək üçün həm mükafat, həm də cəzadan istifadə etmək)*; *to be in the soup (çətinlikdə olmaq)*; *to go bananas (ağlını itirmək)*; *back to the salt mines (etmək istəmədiyin bir şeyə geri dönmək)*;
- Daxilində rənglə əlaqədar sözlərin çıxış etdiyi vahidlər – *to feel blue (qəmgin olmaq)*; *to get the blues (pis əhval-ruhiyyədə olmaq)*; *in black and white (yazılı şəkildə)*; *catch someone red-handed (kimisə səhv bir şey edən zaman tapmaq)*; *to be in the black (pulu olmamaq)*;

İdiomların təsnifatında A.Cəfərov, Ə.Hacıyeva və E.Nəcəfov 5 mühüm qrup olduğunu qeyd etmişlər [21, s. 82-83]:

- Müəyyən bir dildən başqa dillərə tərcümə edilərkən formalaşan vahidlər: *to make two ends meet (çətinliklə dolanmaq)* vahidi *fransız "Joindre les deux bouts"* birləşməsindən *yaranan tərcümədir. A bolt from the blue (gözlənilməz sürpriz)* idiomu *alman "Blitz aus blauem Himmel"* vahidinin tərcüməsi nəticəsində yaranıb;
- Keçmiş dövrlərin inancları, adətləri və ənənələri ilə əlaqədar birləşmələr: *to be on one's high horse (lovğa olmaq)*; *to throw down the glove (çağırış etmək)*; *to win one's spurs (ad qazanmaq)*;

- Müxtəlif vahidlərin məcazi məna bildirməsi zamanı formalaşan ifadələr: *to put (get) one's monkey up (qəzəbləndirmək)*; *be on the edge (narahat insan)*; *to be at sixes and sevens (çaşqınlıq içində)*; *to be above the board (dürüst olmaq)*;
- Semantik əhəmiyyətə malik və tamın mənasını anlamaq üçün tərkib hissələrindən birinin leksik mənasından asılı olmayan birləşmələr: *down to the ground (bütün varlığı ilə)*; *to pull (draw) somebody's leg (ələ salmaq)*;
- Xüsusi adlar vasitəsilə yaranan vahidlər: *Davey Jones' locker (dənizin dibində)*; *Joe Public (tipik, ortabab insan)*; *Himlayan blunder (kobud səhv)*; *before one could say Jack Robinson (bir göz qırpımında)*.

İdiomlar dilçilikdə sematik tam kimi çıxış edir. Onun tərkibində olan komponentlər bir-birilə qaynayıb qarışır, bağlanır, özünün müstəqil şəkildə istifadəsini itirir, nəticədə isə məcazi məna kəsb edir. İdiomların əsas xarakterik xüsusiyyətlərinə daxili forma, sabit məna bütövlüyü, sabitlik və s. aiddir və bunların hər biri idiomların semantik əlamətləri ilə əlaqəlidir.

Qeyd etdiyimiz kimi, dilçilikdə istifadə olunan bir çox idiomların tərkibində insanın bədən üzvlərini bildirən sözlər işlənir. Tərkibində insanın bədən üzvləri işlənən idiomları müxtəlif yarımqruplara ayırmaq olar. Məsələn, tərkibində *əl (hand)* sözü işlənən idiomların tematik məna qruplarına nəzər yetirək [21, s. 96-98]:

- Müxtəlif dinlər, inanclar, ənənələr, həmçinin də vərdişlərlə əlaqəli işlədilən ifadələr: ing. *to ask for a lady's hand (evlilik təklifi etmək)*, *no love lost between (sevməmək)*; Azərb. *Kiməsə könlünü vermək*;
- Yaradıcılıq, iş, əmək, eləcə də əzginlik, ölüvaylıq ifadə edən vahidlər: ing. *to stay one's hand (hər hansı hərəkətdən çəkinmək)*, *to be blue in the face (danışmamaq, əzgin olmaq)*, *to play one's hands for all it is worth (bütün üsullardan istifadə edərək məqsədinə çatmaq)*, *fold one's hands (heç tükünü də tərpətməmək)*; Azərb. *əlini ağdan qaraya vurmamaq*, *əli cibində olmaq*, *əlini yanına salıb dayanmaq*;

- Müəyyən bir işi icra edildiyini və yaxud da edilmədiyini göstərən idiomlar: ing. *Bring home the bacon (yaşamaq üçün pul qazanmaq), to try one's hand at something (bəxtini yoxlamaq)*; Azərb. *çaşıb qalmaq, əl-ayaq açmaq*;
- Məkanla bağlı olan idiomlar: ing. *lie to one's hand/to be ready (əlinin altında olmaq), to fall on our feet (riskli bir işdə uğur qazanmaq), on all hands (əlini hara atırsa/hər yerdə/hər tərəfdən)*; Azərb. *əlinin altında olmaq, yəni bir şeyi tez əldə edə bilmək*;
- Nəyəsə qadir olmaq və ya olmamaqla əlaqəli ifadələr: ing. *a good (crack) great hand (əlindən hər iş gələn), a bull in a China shop (yöndəmsiz, bacarıqsız insan), to be bad at something (nəyisə bacarmayan)*; Azərb. *əli qatıq kəsmir, əli iş bacarmır, əlini pişik yeyib*;
- Hər hansısa bir şeyi əldə etməklə əlaqədar birləşmələr: ing. *to be off somebody's hands (uğurla bitirmək), to beat one's brain out (çox çalışmaq), to put a strain on (kiminsə üzərinə məsuliyyət qoymaq)*; Azərb. *əldə saxlamaq, ələ keçirmək*.

Təbii ki, burada göstərdiyimiz tematik qruplarda əsas komponenti əl (hand) vahidi işlənən bütün idiomlar əks olunmamışdır. Əgər biz tematik qrupları daha da dərin şəkildə araşdırsaq, çoxlu sayda əlavə qruplar müəyyənləşdirə bilərik.

Aşağıdakı bölgüdə isə daxilində *göz (eye)* sözü işlədilən ifadələrin tematik qruplarına nəzər salaq [21, s. 99-100]:

- Görmə ilə bağlı olaraq zaman mənası ifadə edən idiomlar: ing. *to see with half an eye (ilk baxışdan görmək)*; Azərb. *göz açıb yumunca, bir göz qırpımında*;
- Nəvaziş və səmimiyyət ifadə edən idiomatik birləşmələr: ing. *To be an apple of someone's eye (kiminsə göz bəbəyi olmaq)*; Azərb. *göz bəbəyi olmaq*;
- Hərəkətin icra tərzini ifadə edən idiomatik birləşmələr: ing. *to catch somebody's eyes (baxışlarını tutmaq), to speak your mind (ağlından keçdiyi şəkildə danışmaq), to beat the drum (həvəslə danışmaq), to sleep with one eye open (bir gözü açıq yatmaq, narahat yatmaq)*; Azərb. *göz qoymaq, gözlərini zilləmək*;

- Məkanla bağlı olan idiomlar: ing. *before somebody's eyes (kiminsə gözləri qarşısında), behind closed doors (qapalı qapılar ardında)*; Azərb. *gözü dünyanı görmək*;
- Hal-əhval ifadə edən idiomlar: ing. *to be on cloud nine (xoşbəxt hiss etmək), eyes on stalks (qorxudan gözləri bərələ qalmaq), to beat one's head against the wall (ümidsizcə)*; Azərb. *gözünün qarasını sıxmaq*;
- Xeyirxah olmayan arzuları ifadə edən idiomlar: ing. *cock-eyed (çəpgöz), cards are stacked against (şansı üzünə gülməmək)*; Azərb. *gözünə qan dolmaq, gözü qurumamaq*.

Yuxarıda qeyd etdiyimiz tematik qruplar arasında məna cəhətdən oxşarlıqlar vardır. İçərisində *əl (hand)* və *göz (eye)* komponentləri olan idiomlarda fəaliyyətin məkan və zaman xarakteristikası, emosional vəziyyət, arzu, hal mənaları arasında semantik cəhətdən yaxınlıq olduğunu müşahidə edirik.

Komponentləri arasında *foot* vahidi olan idiomların tematik qruplarına baxaq [21, s. 103-104]:

- Hərəkət, ayaqla getmək mənasını ifadə edən idiomlar: ing. *to set foot on foot (yerimək), to appear out of now here (qəfil gəlmək), to foot the road (piyada gəzmək)*; Azərb. *ayaq açmaq, ayaq atmaq*. Burada qeyd olunan idiomalar daha çox gəzmə, yeriş prosesi ilə əlaqəli olan birləşmələrdir. Yerişin xarakteri ilə bağlı olan idiomatik ifadələrə nəzər salaq: ing. *to be light on one's feet (yüngül rəqs etmək), to have two left hands (ağır taxtalı olmaq)*; Azərb. *ayağını sürümək, ayaqdan iti olmaq*;
- İnsanların qarşılıqlı münasibətini ifadə edən idiomatik birləşmələr: *to rush somebody off his feet (çalışmağa zorlamaq), to lick somebody's feet (kiminsə qoltuğuna qarpız vermək, qılığına girmək)*; Azərb. *ayağını kəsmək, ayağı daşa dəymək* və s. aiddir;
- İnsanın bacarığını, fəaliyyətin təbiətini, eləcə də hasilini ifadə edən birləşmələr: *to put something on foot (yaratmaq), with both feet (son sözüylə), to have the*

ball at one's feet (darda qalmamaq), to get one's foot ladder (nailiyyət əldə etmək), to keep one's footing (mövqeyini qorumaq); Azərb. *bir ayağını burdan, o biri ayağını ordan qoymaq, ayağı büdrəmək.*

Tematik qrupların müəyyən bir hissəsini qeyd etsək də, onlar haqqında çoxlu yazmaq olar. Dilçilikdə olan bu tip tematik qruplar nitqə ifadəlilik, emosionallıq gətirir. İngilis dilində geniş yayılmış tematik qruplardan bəzilərinə insan xarakterini və təbiətini ifadə edən idiomlar aiddir. İnsan xarakteri dedikdə onun əxlaq və davranışına aid olan xüsusiyyətlər toplusu nəzərdə tutulur. Xarakter müsbət və mənfi cəhətləri özündə əks etdirir. Beləliklə, idiomları insanın müsbət və mənfi xarakterini ifadə etməsinə görə iki yarımqrupa ayırmaq olar [21, s. 92-94].

İnsan xarakterinin mənfi cəhətlərinə zülmkarlıq, satqınlıq, kobudluq, ikiüzlülük, biganəlik, yalançılıq, xəsislik, məddahlıq, arsızlıq, qiybətçilik və s. kimi keyfiyyətlər aiddir. Həm Azərbaycan, həm də ingilis dillərində insan xarakterinin mənfi cəhətlərini ifadə edən çoxlu sayda idiomlar vardır. İngilis dilində əclaflıq, rəzillik, satqınlıq kimi insanın mənfi xüsusiyyətlərini ifadə edən bəzi idiomlara nəzər yetirək. Məsələn: *paint somebody black (kiməsə pis görünmək), a bad actor (fırıldaqçı), sell a person (inandırmaq)*.

Azərbaycan dilində də, həmçinin, alçaqlıq, əclaflıq, rəzillik mənalarını ifadə etmək üçün çoxlu sayda idiomlardan istifadə olunur. Məsələn: *qoyun cildinə girmiş canavar, çörəyi dizinin üstündədir, saman altından su yeridən, Mazandaran çaqqalı*.

İngilis dilində ikiüzlülük və riyakarlıq mənalarını ifadə etmək üçün istifadə edilən bəzi idiomlara baxaq. Məsələn: *a double game (iki tərəfi də idarə etmək), show a false face (özünü fərqli şəkildə təqdim etmək), cry with one eye and laugh with the other (ikili olmaq)* və s. kimi birləşmələri misal göstərmək olar.

İnsan xarakterinin mənfi cəhətlərindən bəzilərinə qəddarlıq və rəhmsizlik kimi xüsusiyyətlər aiddir. Hər iki dildə bu cəhətləri ifadə edən müxtəlif idiomlar var. Məsələn, ingilis dilində bu cəhətləri göstərmək üçün *king stock, drop (weep) millstones*

(one's eyes drop millstones), to out-Herod (zülmkar olmaq) və s. kimi idiomlardan istifadə olunur.

Azərbaycan dilində də belə mənanı ifadə edən çoxlu sayda idiomlardan istifadə olunur. Belələrinə *boğazını üzmək, yer üzündən silmək, əzib toza döndərmək* kimi ifadələri aid etmək olar.

Dildə insanın mənfi xarakterinə məxsus əlamətlərdən naqqallıq, zəvzəklik və s. kimi xüsusiyyətləri bildirmək üçün müxtəlif sayda idiomların yarımqrupları fərqləndirilir. İngilis dilində bu cəhətləri ifadə etmək üçün istifadə olunan idiomlara nümunə olaraq *spend (waste) one's breath (boş-boş danışmaq), shoot (throw) the ball, be a lot of noise (çox səs), a man of many words (çox danışan)* şəklində vahidləri aid etmək olar.

İngilis dilində yalançılıq keyfiyyətini ifadə etmək üçün istifadə olunan idiomlara *play somebody false (aldatmaq), leave somebody in the lurch (yarı yolda qoymaq)* aiddir.

Ərincəklik, işləməyə könülsüz olmaq kimi xüsusiyyətlər də, həmçinin, insan xarakterinin mənfi cəhətlərinə aiddir. İngilis dilində bu xüsusiyyətləri bildirmək üçün istifadə olunan bəzi idiomlara baxaq. Məsələn: *feel down (kefsiz), a man of nothing to do (işi olmayan, heçnə etməyən adam), sit like a bump on a log (maraqsız insan)*.

Qeyd etdiyimiz kimi, insan xarakteri mənfi keyfiyyətlərlə yanaşı müsbət keyfiyyətlərə də malikdir. Mənfi xüsusiyyətlərlə yanaşı dildə müsbət cəhətləri də ifadə etmək üçün çoxlu sayda idiomlardan istifadə olunur. Ümumiyyətlə, insan xarakterinin müsbət cəhətləri dedikdə cəsurluq, əməksevərlik, dözümlülük, əliaçıqlıq, sədaqətlilik, xeyirxahlıq, xarakter bütövlüyü, təmkinlilik, qətiyyətlilik, kişilik və s. aiddir. Nümunə: *have one's heart in the right place* idiomu *mehriban olmaq, xoş hislər bəsləmək* mənalarını bildirmək üçün istifadə olunur.

Dilçilikdə istifadə olunan idiomlardan bəziləri isə insan xarakterinin müsbət cəhətləri olan yaxşılıq, mehriban olmaq, ədalətlilik və s. kimi xüsusiyyətləri bildirir. Belə idiomlardan bəzilərinə baxaq: *to think the world of somebody (yüksək fikirlərə*

sahib olmaq), to give the shirt off one's back (başqalarına kömək üçün hər şeyi etməyə hazır olmaq), to give a helping hand to somebody (kiməsə yardım, kömək əli uzatmaq), to draw somebody out of the mire (kiməsə fikirlərini daha rahat ifadə etməyə kömək etmək, rahatlatmaq), to help the lame dog over a stile (ehtiyacı olanın yardımına yetişmək), to bear the blame (məsuliyyəti öz üzərinə götürmək).

Gördüyümüz kimi, idiomatik ifadələrin semantik xüsusiyyətləri, bu ifadələrin tərkib hissəsini təşkil edən komponentlər arasındakı daxili əlaqələr, həmçinin də onların yaranma mənbələri idiomatik ifadələrin müxtəlif qruplarını müəyyənləşdirmək üçün imkan yaradır.

Beləliklə, dissertasiya işinin bu yarımfəslində ilk növbədə idiomatik birləşmələrin ideya-məzmun və semantik xüsusiyyətlərindən bəhd olundu. Bu ifadələrin çoxmənalılıq, antonimlik, omonimlik, eləcə də sinonimlik yarada bilmə xüsusiyyəti diqqəti cəlb edən əsas məsələlərdəndir. Daha sonra isə müxtəlif dilçi alimlər tərəfindən idiomatik ifadələrlə bağlı irəli sürülmüş təsnifatlar nəzərdən keçirildi.

GLOSSARY

- To say good-bye to all hopes – əlini, ümidini üzmək
- To come clean – doğrusunu demək
- Juggle frogs – çox çətin bir şeyi etməyə çalışmaq
- To make a bee line for – bir şeyə tərəf düz istiqamətdə getmək
- Bark up the wrong tree – düzgün seçim etməmək
- No smoke without fire – od olmayan yerdən tüstü çıxmaz
- Pick someone to pieces – kəskin şəkildə tənqid etmək
- Albatros around one's neck – kiminsə boynundan albatros quşu kimi sallanmaq
- A queer fish – qəribə insan
- Neck and crop – tələm-tələsik
- Mum's the word – gizli iş
- Get on the ball – məqsəd üzərində diqqətini cəmləmək
- A bowl of cherries – möhtəşəm
- A bolt from the blue – gözlənilməz hadisə
- An evil eye – göz nəfis
- Mind your head! – başından muğayat ol
- A double game – iki tərəfi də idarə edən
- Take him out of the picture – mövcud vəziyyətdən kənarlaşdırmaq
- The last straw – səbrin son damlası
- Down to earth – realist, şahşahadan uzaq
- Early bird – bir işi erkən görən şəxs
- To be in two minds – qərarsız qalmaq
- Blow it – şansını itirmək
- The eleventh hour – son dəqiqədə
- Burn one's fingers – ağzı yanmaq, dərs almaq
- Bearing in mind – yadda saxlamaq

- To go to the dogs – it nəfsinə keçmək
- Cut a sorry figure – başqalarında özünə qarşı səhv fikir formalaşdırmaq
- Get out of hand – kontroldan çıxmaq
- Break the ice – buzları əritmək
- Cry over spilt milk – xırda bir şeyi dərd eləmək
- Be strapped for cash – qəpiyə güllə demək
- To see eye to eye – eyni dildən danışmaq
- To speak volumes – danışmadan, baxışlarla ifadə etmək
- To look with pooh-pooh eyes – məhəbbətlə baxmaq
- To learn the ropes – cikini-bikini bilmək
- Pull yourself together – özünə gəlmək
- Keep oneself to oneself – özünə qapalı olmaq
- To play with fire – təhlükəli bir şeyə cəhd etmək
- Rake someone over the coals – sərt şəkildə danlamaq
- X-rated – uşaqlar üçün uyğun olmayan insan
- A big cheese – nüfuzlu insan
- At the crack of the dawn – çox erkən
- To have a frog in someone's throat – həyəcandan kiminsə boğazının tutulması
- A cuckoo in the nest – hörmət edilməyən şəxs
- A cock and a bull story – doğru olmayan bir şey
- A wakeup cal – xəbərdarlıq
- All systems go – hər şey hazırdır
- To drink till all's blue – ən son damlasına qədər içmək
- Drop in on – salam-sağol ziyarət etmək
- A house of cards – zəif plan
- At the bottom of the ladder - ən aşağı səviyyə
- Beat one's head against the wall – ümidsiz bir şeyi etməyə çalışmaq
- To put the cart before the horse – tərsinə və baş-ayaq iş görmək

- To die in harness – kasıb həyat sürmək
- To have an axe to grind – çıxarı olmaq
- Burn a hole in one’s pocket – pulu çox tez xərcləmək
- Drive a wedge between - əlaqəni kəsmək
- Driving me bananas – dəli etmək
- Save up for something – bir şey üçün pul yığmaq
- To drown in debt – borc içində boğulmaq
- Paint somebody black – kiməsə pis görünmək
- Eat the bread of iddleness – tənbəl

NƏTİCƏ

Bizim tədqiqat işinin mövzusu iki müxtəlifsistemli dildə, yəni İngilis və Azərbaycan dillərində idiomatik ifadələr və onların istifadə olunduqları dilin məna çalarlarına təsiri ilə bağlıdır. Beləliklə, aparılmış araşdırmalar və təhlillər nəticəsində öyrənmiş olduq ki, həm İngilis, həm də Azərbaycan dilçiliyində frazeologiya mühüm əhəmiyyət kəsb edir. Frazeologiya dilçilikdə ümumi bir anlayışdır, yəni ondan bəhs edərkən sadəcə frazeoloji birləşmələr nəzərdə tutulmamalıdır. Dilçiliyin bu bölməsində frazeoloji birləşmələrlə yanaşı idiomatik birləşmələr, ibarələr, hikmətli sözlər, atalar sözləri, zərb-məsəllər və s. öyrənilir. İngilis dilinin leksik fonunda frazeologizmlər çox geniş yerə malikdirlər. Bir dili öyrənmək üçün onun lüğətini öyrənmək çox böyük əhəmiyyət kəsb edir. İngilis dilini öyrənmək üçün ilk növbədə biz bu dilin frazeologiyasını ətraflı şəkildə öyrənməliyik. İngilis dilində frazeologizmlər dilin böyük bir hissəsini təşkil edir. Bu onu göstərir ki, frazeologizmlər ingilis xalqının məişətində, mədəniyyətində, ictimai və siyasi həyatında çox mühüm rol oynayır. Bu mövzuda aparılan tədqiqatlar nəticəsində frazeologiya sahəsində mühüm xidmətləri olan həm rus, həm xarici ölkə alimləri, həm də Azərbaycan dilçilərini öyrəndik. Rus dilçilərindən A.Şaxmatov, F.Fortunov, A.Peşkovski, A.Potebnya, Azərbaycanda X.Əhmədova, İ.Rəhimov, N.Vəliyeva və s. kimi şəxslər ingilis dilinin tədqiq olunmasında iştirak etmişlər.

Bizim tədqiqat işinin əsas mövzusu frazeologiyada öyrənilən idiomlarla bağlıdır. Bu tədqiqat işində gördük ki, idiom dedikdə iki və daha artıq müstəqil mənalı sözün birləşərək yeni bir məna kəsb etməsi nəticəsində əmələ gələn birləşmələr nəzərdə tutulur. İdiomlar dilin öyrənilməsində çox mühüm əhəmiyyətə malikdir. Həmçinin, onlar xalq etimologiyasına da böyük təsir göstərir. İdiomlar nitqə ifadəlilik, bədiilik gətirdiyi üçün üslublarda geniş şəkildə istifadə olunur. İdiomlar bədiilik məqsədilə istifadə olunduğu üçün biz idiomlara daha çox bədii üslubda rast gəlirik. Ümumiyyətlə,

idiomatik vahidlər hər hansısa bir fikrin daha emosional və obrazlı şəkildə ötürülməsində böyük rol oynayır.

İdiomatik birləşmələrin tərkib hissəsini təşkil edən sözlər bir-biri ilə sıx şəkildə elə qaynayıb-qarışmışdır ki, biz onları ayrı-ayrılıqda təsəvvür edə bilmərik. Bir sözlə, idiomatik ifadələrin komponentləri sayılan sözlər hər biri ayrılıqda müəyyən müstəqil məna strukturuna malik olmasına baxmayaraq, hər biri idiomatik birləşmənin tərkibində öz məna strukturunu dəyişir və bütövlükdə vahidin məna strukturunun elementi olurlar. Dilçilikdə geniş şəkildə istifadə olunan bu ifadələr arasında struktur baxımdan müəyyən qədər fərqlər ortaya çıxır. Bu, o deməkdir ki, quruluş baxımdan həmin ifadələrin bir qismi cümlə formasında, digər bir qismi isə söz birləşməsi formasında mövcud olur.

Eyni zamanda dildə geniş şəkildə istifadə olunan bu ifadələrin alınma və xalis olmaqla iki qrupa bölündüyünü öyrənmiş olduq. Dilin lüğət tərkibinin əsasını təşkil edən bu ifadələr daha çox xalqın dünyagörüşü, milli adət-ənənələri, həyat tərzi, əxlaqi və mənəvi dəyərləri ilə bağlı olaraq müəyyən dövrlər ərzində yaranmış və inkişaf etmişdir.

İngilis dilində istifadə olunan idiomatik vahidlərin əsas sözləri isim və feillərdən ibarət olur. Buna görə də dilçilikdə bu birləşmələrin iki əsas qrupu fərqləndirilir:

- İsmi idiomatik birləşmələr;
- Feili idiomatik birləşmələr.

Adından da göründüyü kimi, ismi idiomatik birləşmələrdə əsas, yəni aparıcı söz adlardan, feili idiomatik ifadələrdə isə aparıcı söz feildən ibarət olur, yəni hərəkət ifadə edir.

Bizim araşdırmış olduğumuz əsas məqamlardan biri də idiomatik vahidlərin semantik xüsusiyyətləri ilə bağlı idi. Bu birləşmələrin semantik xüsusiyyətlərinin təhlili göstərdi ki, omonimlik, sinonimlik, antonimlik, eləcə də çoxmənalılıq kimi bir sıra semantik hadisələr sözlərlə yanaşı idiomatik vahidlərə də aid olur. İdiomatik ifadələrin çoxmənalılığı dedikdə eyni bir ifadənin müxtəlif mənaları ifadə etmə hadisəsi nəzərdə tutulur. Sinonimlik xüsusiyyəti müxtəlif birləşmələrin eyni mənanı bildirməsi ilə

bağlıdır. Antonimlik dedikdə isə əks mənalı birləşmələr nəzərdən keçirilir. İdiomatik vahidlərin omonimliyi isə bir-birinə yaxınlığı nəzərdə tutulur.

Toxunduğumuz əsas məqamlardan biri də idiomatik vahidlərin bir dildən başqa bir dilə tərcüməsi ilə bağlıdır. Belə ki, idiomatik vahidlərin tərcüməsində müxtəlif üsullardan istifadə edildiyini öyrəndik. Bu üsullardan bir neçəsinə misal olaraq ekvivalent, analoq, təsviri, antonimik, kalka üsulu, eləcə də kombinasiya üsulu tərcümənin adını çəkdik. İdiomatik ifadələrin ekvivalentliyi məsələsi dilçilik elminin gündəmində olan ən aktual məsələlərdən biridir. Bu ifadələrin yaradılması üsullarının araşdırılması, həmçinin də inkişafı əhəmiyyətinin öyrənilməsi yarana biləcək müəyyən problemlərin həll olunmasında, eləcə də bu sahə ilə bağlı çoxlu sayda lüğətlərin tərtib edilməsində mühüm rol oynayır.

Ən sonda idiomların təsnifatı ilə bağlı məsələlərdən bəhs edilmişdir. Ümumilikdə, bu vahidlərin təsnifatı müxtəlif prinsiplər əsasında aparılmışdır. Bəzi alimlər idiomatik ifadələri ifadə etdiyi mənalara görə qruplaşdırarkən, digər bir qismi isə bu ifadələri tərkib hissəini təşkil edən komponentlərə görə qruplaşdırır. Bildik ki, ifadə etdiyi mənalara görə dilçilikdə hərbi sahə ilə, adət ənənələrlə, məkanla, müxtəlif dini inanclarla bağlı olaraq istifadə olunan idiomlar fərqləndirilir. Bundan başqa fəaliyyəti və ya fəaliyyətsizliyi, nəvazişi, insana məxsus olan istər müsbət, istərsə də mənfi keyfiyyətləri ifadə etmək üçün istifadə olunan birləşmələr də müəyyən qruplarda cəmləşdirilmişdir.

Ümumi dissertasiya işinin sonunda anlamış olduq ki, dilçiliyin frazeologiya bölməsi qədim dövrlərdən bəri daim müxətlif millətlərə məxsus olan dilçilərin diqqət mərkəzində olmuşdur. Bu məsələ ilə bağlı çoxlu sayda ingilis, rus, alman, azərbaycan, fransız, türk və s. alimləri tədqiqatlar aparmış və müəyyən fikirlər söyləmişlər. İngilis və Azərbaycan dillərinin frazeologiyasının müqayisəli şəkildə öyrənilməsi isə dilçilik elmində bu sahənin inkişafında çox mühüm rol oynamışdır. Qədim zamanlarda idiomlar frazeologiyanın tərkibində tədqiq edilib öyrənilmişdir. Bəzi dilçi alimlər sonradan bu sahənin ayrılıqda geniş şəkildə araşdırılmasını daha məqsədəuyğun hesab etmişlər.

İdiomatik ifadələrin hər iki dildə ayrıca bir sahə kimi öyrənilməsi hər iki dilin müqayisə edilərək daha əhatəli şəkildə tədqiq olunmasında böyük rol oynamışdır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

Azərbaycan dilində

1. Abbasova N.H. Paremio-frazeoloji vahidlərin (aforizmlərin) tərcümə problemləri. Fil.f.d.,dis.avtoref. BDU. Bakı, 2016, 140 s;
2. Adilov M., Yusifov G. Sabit söz birləşmələri. Bakı: Maarif, 1991, 152 s;
3. Ağayeva R.R. Frazeologizmlərin formalaşmasında ekstralinqvistik amillərin rolu. Fil.f.d.,dis.avtoref. ADU. Bakı, 2016, 136 s;
4. Babayev A.M. Azərbaycan dilçiliyinin tarixi. Bakı: Bakı Universiteti Nəşriyyatı, 1996, 276 s;
5. Baxşıyev H. Sabit söz birləşmələri və izahlı frazeoloji lüğətlərin tərtibi prinsipləri. Nəsimi adına Dilçilik İnstitutu. Bakı, 2002, 164 s;
6. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı: Maarif, 1978, 176 s;
7. Bayramov Q.H. Tərcümə sənəti (Tərcümə nəzəriyyəsi üzrə ali məktəb tələbələri üçün dərslik). Bakı: "OKA Ofset" nəşriyyatı, 2008, 218 s;
8. Cəfərov S. Müasir Azərbaycan dili. Bakı: Şərq-Qərb, 2007, 192 s;
9. Cəfərov S.Ə. Müasir Azərbaycan dili. II hissə, "Maarif" nəşriyyatı. Bakı, 1982, 214 s;
10. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı: "Azərtədrisnəşr", 1962, 272 s;
11. Hacıyeva A. Zoometaforizmlər. Bakı: Nurlan, 2007, 192 s;
12. Hacıyeva Ə. İngilis və Azərbaycan dillərində somatik frazeologiyanın əsasları. Bakı: Nurlan, 2008, 276 s;
13. Hacıyeva Ə. İngilis və Azərbaycan dillərində somatik frazeologizmlərin struktur-semantik xüsusiyyətləri. Bakı: Nurlan, 2004, 192 s;
14. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Nurlan, 2001, 399 s;

15. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: Nurlan, 2003, 399 s;
16. Hüseynov M. Poetik frazeologiya. Bakı: “Elm və təhsil”, 2013, 166 s;
17. Hüseynov M. Poetik frazeologiya. Bakı: “Elm və təhsil”, 2013, 166 s;
18. Xudadarova N. “To put” komponentli frazeoloji birləşmələrin struktur-semantik təhlili//İPƏK YOLU//№ 3. Bakı, 2017, s. 169-178;
19. Quliyev T. İngilis və Azərbaycan dillərində idiomatiklik və idiomların transformasiya yolları. Filol.elm.dok.dis. ADU. Bakı, 2012, 146 s;
20. Quliyev T. İngilis və Azərbaycan dillərində idiomatiklik və onun öyrənilməsi vəziyyəti//ADU//Elmi xəbərlər//№ 5. Bakı, 2004, s. 108-113;
21. Quliyev T. Müxtəlifsistemli dillərdə idiomatik birləşmələr. Bakı: “Mürtəcim”, 2016, 168 s;
22. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili, I c. Bakı: “Maarif”, 2010, 452 s;
23. Mahmudova Q. Qıpçaq qrupu türk dillərinin frazeologiyası. Bakı: Nurlan, 2009, 294 s;
24. Mirəli R. Farsdilli türk şairlərinin əsərlərində türkizmlər (leksika və frazeologiya). Fil.f.d.,dis.avtoref. BDU. Bakı, 2015, 168 s;
25. Mustafayeva S. İngilis dilində işlək idiomlar və onların Azərbaycan dilində qarşılığı (“Everyday english idioms with Azerbaijani equivalents in use”). Bakı: Letterpress, 2008, 344 s;
26. Rəcəbov Ə.Ə. Dilçiliyin tarixi. Bakı: Maarif, 1987, 541 s;
27. Rəhimzadə N. İdiomatik ifadələrin əmələgəlmə yolları haqqında//Azərbaycan SSRİ Elmlər Akademiyasının xəbərləri//Ədəbiyyat, Dil və İncəsənət seriyası//№ 1. Bakı, 1966, s. 60-69;
28. Rəhimzadə N. Sinonim idiomatik ifadələr və onların variantları haqqında//Oktyabr inqilabı və Azərbaycan dilçiliyi məsələləri. Nəsimi adına Dilçilik İnstitutu. Bakı, 1969, 201 s;
29. Seyidov Y. Azərbaycan dilində söz birləşmələri. Bakı: Maarif, 1991, 408 s;

30. Sürek M. Müasir ingilis dilində feili frazeoloji vahidlərin leksik-semantik xüsusiyyətləri. Fil.f.d.,dis.avtoref. ADU. Bakı, 2015, 24 s;
31. Vəliyeva F. Azərbaycan və İngilis dillərində ornitonim tərkibli frazeoloji birləşmələrin leksik-semantik xüsusiyyətləri. Fil.f.d., dis. avtoref. NDU. Bakı, 2014, 180 s;
32. Vəliyeva N. Frazeoloji birləşmələrin müqayisəli linqvistik təhlili. Bakı: Ünsiyyət, 2001, 218 s;
33. Vəliyeva N. Müxtəlifsistemli dillərdə feili birləşmələrin tipoloji təhlili. Bakı: Avropa, 2008, 864 s;
34. Vəliyeva N. Müxtəlifsistemli dillərdə nitq və təfəkkür feilləri ilə formalaşan frazeoloji vahidlər. Nəsimi adına Dilçilik İnstitutu. Bakı, 1999, 104 s;
35. Yusifova G. İngilis dili idiomlarının sintaktik, semantik və koqnitiv xüsusiyyətləri. Fil.f.d.,dis.avtoref. ADU. Bakı, 2015, 142 s.

Türk dilində

36. Kömür Ş., Çimen Ş.S. Yabancı dil sınıflarında deyim öğretiminde kavramsal mecazların kullanımı//Muğla Üniversitesi//Sosyal Bilimler Enstitüsü Dergisi (İLKE)//№ 23. Güz, 2009, s. 206-222.

Rus dilində

37. Влахов С., Флории С. Непереводимое в переводе. М.: Международные отношения, 1986, 320 с;
38. Долгополов Ю.А. Сопоставительный анализ соматической фразеологии. Автореф. ... кан. фил. наук. АКД, Казан, 1973, с. 25;
39. Кунин А.В. Курс фразеологии современного английского языка. Дубна, 2005, 493 с;

40. Кунин А.В. Курс фразеологии современного английского языка. Учеб: для инс-ов ин.яз. 2-ое издание. М.: Высшая школа, 1996, 381 с;
41. Литвинов П.П. Фразеология. Повышаем речевую готовности. М.: "Примстрой-М", 2001, 176 с;
42. Райхштейн А.Д. Сопоставительный анализ немецкой и русской фразеологии. М.: Высшая школа, 1980, 143 с;
43. Федоров А.В. Основы общей теории перевода (Лингво. проблемы), М.: Изд. – во “Высшая школа”, 1983, 304 с.

İngilis dilində

44. Abdusamadov Z. The classification and functions of phraseological units in english language//Academic Research in Edicational Sciences//№2. Uzbekistan: Scientific Journal Impact Factor, 2021, pp. 1135-1144;
45. Alekhina A. Idiomatic English. Minsk: Vysheishaya Shkola, 1982, 278 p;
46. Ambrose J. Why idioms are important for english language learners//Mikolaiv State Pedagogical University//№3. Ukraine, 2003, pp. 180-182;
47. Cristina C., Patrizia T. Idioms: Processing, Structure, and Interpretation. New York: Psychology Press, 2014, 105 p;
48. Jansone A. Phraseological units with the elements referring to life and death in English and Russian//Daugavpils University//№ 35. Latvia, 2018, , 8 p;
49. Monireh A. Strategies for Translating Idioms//Journal of Academic and Applied Studies//№ 3. Tehran. 2013, pp. 32-41;
50. Prysiazhna O., Tulchak L., Hadaichuk N., Medvedieva S. English idioms: transformation of image//World science//№ 9. Ukraine, 2018, pp. 66-68;
51. Strassler J. Idioms in English: A Pragmatic Analysis. Germany: University of Zurich, 1982, 104 p;

52. Fedulenkova T. English phraseological units and their constant functions//Vladimir State University//№2. Russia, 2013, 6 p;
53. Yusifova P. Colour idioms in linguocultural comprehension of implicit meaning in the English and Azerbaijani languages//Journal of Language and Cultural Education//№2. ADU. Bakı, 2022, pp. 69-76.

Lüğətlər

54. Ayto J. Oxford Dictionary of English Idioms. Oxford, Oxford University Press, 2010, 408 p;
55. Vəliyeva N. Azərbaycanca-İngiliscə-Rusca frazeoloji lüğət. Bakı: Nurlan, 2006, 863 s.

Bədii ədəbiyyat

56. Chaucer G. The Canterbury Tales. London, 1845, 277 p;
57. John Galsworthy. End of the Chapter. New York, 2008, 670 p.

İnternet resursları

58. http://www.azerbaycandili.az/synopsis/download/3274/s%c3%9crek%20b%c6%8fhram%20qizi%20m%c6%8fh%c4%b0n%20m%c3%9cas%c4%b0r%20%c4%b0ng%c4%b0l%c4%b0s%20d%c4%b0l%c4%b0nd%c6%8f%20fel%c4%b0%20frazeoloj%c4%b0%20vah%c4%b0dl%c6%8fr%c4%b0n%20leks%c4%b0ksemant%c4%b0k%20x%c3%9csus%c4%b0yy%c6%8ftl%c6%8fr%c4%b0.pdf
59. http://www.korpus.azerbaycandili.az/synopsis/download/2193/m%c6%8fns%c4%b0mzad%c6%8f%20sev%c4%b0nc%20ak%c4%b0f.m%c3%9cxt%c6%8fl%c4%b0fs%c4%b0steml%c4%b0%20d%c4%b0ll%c6%8frd%c6%8f%20h%c6%8fr%c6%8fk%c6%8ft%20fell%c6%8fr%c4%b0%20%c6%8fsasinda%20yaranan%20fr

azeolog%c4%b0zml%c6%8fr%20(%c4%b0ngilis%20v%c6%8f%20az%c6%8frbaycan%20dill%c6%8frinin%20materiallari).pdf

60. https://az.wiktionary.org/wiki/kateqoriya:frazeoloji_birl%c9%99%c5%9fm%c9%99
61. https://en.wikibooks.org/wiki/the_main_principles_of_english_phraseology
62. https://englishlexicology.blogspot.com/2011/12/phraseology.html
63. https://examenna5.net/work/6769
64. https://onlineteachersuk.com/english-idioms/
65. https://www.bildirchin.az/ingilis-dilinin-danisiq-dilind%c9%99-istifad%c9%99-olunan-v%c9%99-lug%c9%99tl%c9%99rd%c9%99-olmayan-soz-birl%c9%99sm%c9%99l%c9%99ri/
66. https://www.espressoenglish.net/english-idioms-for-personality-character/
67. https://www.phrases.org.uk/meanings/an-albatross-around-ones-neck.html